EVDƏ QAL,
SAĞLAM QAL!

KİV nümayəndələri: “Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində mətbuatımız yeni inkişaf mərhələsini yaşayır”



Bax 5

Ərdoğan: “Azərbaycanlı qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək səylərini dəstəkləyirik”



Bax 7



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 129 (6093) 30 iyul 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir



Bax 2

*Prezident İlham Əliyev Qobustan, İsmayıllı və Balakən rayonlarına səfər edib*

## Ermənistanın daha bir PUA-sı məhv edildi!



İyulun 29-da axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə...

Bax 7

## David Tonoyan: “Azərbaycan-Türkiyə birgə hərbi təlimlərindən Ermənistan narahatdır”

Ermənistanın müdafiə naziri David Tonoyan bu gün Fransanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Conatan Lakotanı qəbul edib. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, görüşdə ikitərəfli əməkdaşlığın aktual problemləri...



Bax 6

## YAP İcra Katibliyində “İnformasiya resurslarında milli maraqlarımızın təmin edilməsi” mövzusunda videokonfrans keçirilib

*İyulun 29-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində “İnformasiya resurslarında milli maraqlarımızın təmin edilməsi” mövzusunda videokonfrans...*



Bax 7

## Emin Hüseynovun erməni sevgisi

*Düşündüyümüz kimi olmadı. Əslində, gözləyirdik ki, Tovuz təxribatından sonra müxalifət və xaricdəki radikal soydaşlar çəkici bir nöqtəyə vuracaq, Azərbaycanın haqq işini müdafiə edib, birlik nümayiş etdirəcəklər. Oradan bütün dünyaya bəyan edəcəklər ki, ser və senyorinalar, Ermənistan Azərbaycana təxribat edib...*



Bax 9

## Messinin atası Milanda ev alıb

*“İnter”in sabiq sahibi Massimo Moratti Lionel Messinin bu kluba keçəcəyinə ümid edir. Qol.az-ın xəbərinə görə, o, “La Gazzetta dello Sport”a müsahibəsində bildirib ki, bəzən futbolda xəyallar gerçəkləşir...*



Bax 16

Vüqar Rəhimzadə: Siyasi islahatlar ölkədə yeni dialoq və əməkdaşlıq mühiti yaradıb



Bax 8

Bəhruz Quliyev: “Hərbi təlimlər Ermənistanda ciddi təşviş yaradıb”



Bax 8

Erməni orkestrinin bekvokalları kimlərdir?



Bax 10

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Qobustan, İsmayıllı və Balakən rayonlarına səfər edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Qobustan rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.***

Qeyd edək ki, regionların inkişafı ilə əlaqədar icra olunan dövlət proqramları, həmçinin Prezident İlham Əliyevin rayonlara səfərləri zamanı əhali tərəfindən qaldırılan məsələlərə həssas münasibət Qobustan rayonunun iqtisadi, sosial və mədəni həyatına da təsirsiz ötüşməyib. Son illər ölkənin bütün regionları kimi, bu rayon da özünün əsl inkişaf dövrünü yaşayır. İqtisadiyyatın şaxələndirilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür.

İyulun 29-da Qobustanda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan











Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısına modul tipli xəstəxanada yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, üç korpusdan ibarət, 100 palatası və 200 çarpayı yeri olan bu xəstəxana kompleksi mərkəzləşdirilmiş Oksigen Generator Sistemi ilə, həmçinin mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunub. Burada orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün zəruri şərait yaradılıb. Ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz edilməklə müvafiq təkmilləşdirilmə işləri görülür.

Bu korpus zərurət olmadıqda - yəni, pandemiya ilə mübarizə başa çatdıqdan sonra asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün - məsələn, hərbi hissələr, sərhəd xidməti, tədris və ya fövqəladə hallar, yataq, məişət xidməti və sair üçün istifadə edilə bilər.

**Ardı Səh. 3**

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Qobustan, İsmayıllı və Balakən rayonlarına səfər edib*








Əvvəli səh. 2





Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən önləyici kompleks tədbirlər çərçivəsində ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanılıb. Mayın 7-də Bakıda 1 saylı Kliniki Tibbi Mərkəzdə ilk, iyunun 9-da 28 saylı Bilgəh qəsəbəsində Birləşmiş Şəhər Xəstəxanasının, 1 saylı Sumqayıt Şəhər Xəstəxanasının və Abşeron rayonunun Saray qəsəbə xəstəxanasının, iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusları, iyulun 6-da Xətai rayonunda modul tipli hospital istifadəyə verilib. Növbəti modul tipli infeksion xəstəliklər korpusu Qobustan rayonunda quraşdırılıb. Bu komplekslər rayon mərkəzi xəstəxanalarının yaxınlığında quraşdırılaraq onlara təhkim olunur ki, bu da koronavirus xəstələrinin lazımı tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi koordinasiyanı təmin edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin yenidən qurulması layihəsi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov layihə üzrə görüləcək işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, respublikanın mühüm turizm bölgələrinə gedən və ilk dəfə ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmış bu yolun yenidən qurulması Prezident İlham Əliyevin bundan əvvəlki səfəri zamanı verdiyi tapşırığa əsasən layihələndirilib. Ümumi uzunluğu 85,6 kilometr olan bu yol yenidənqurma nəticəsində 9 kilometr qısalacaq. Yol genişləndiriləşək 4 hərəkət zolağından ibarət olacaq. Ağsuçay çayı üzərində uzunluğu 634 metr olan yeni körpü tikiləcək. Prezident İlham Əliyev yolun uzunömürlü və davamlı olması, sürüşkən ərazilərdə tikinti işlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da İsmayıllı rayonuna səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ulu Öndərin abidəsi önünə gül dəstəsi qoyub. Rayonda görülən abadlıq işləri, həyata keçirilən layihələr barədə Prezident İlham Əliyevə məlumat verən İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov dedi:

-Cənab Prezident, cəlb etdiyimiz bir investisiya barədə Sizə məlumat vermək istərdim.

**Ardı Səh. 4**

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Prezident İlham Əliyev Qobustan, İsmayıllı və Balakən rayonlarına səfər edib*



Əvvəli səh. 3

İvanovka kəndində böyük karamel fabriki və un məmulatları fabriki yaradılıb. Artıq xeyir-duanızı gözləyirik.

Prezident İlham Əliyev: Kəndin içindədir?

Nahid Bağırov: Bəli, kəndin içindədir, gözəl dizaynı var. Burada 200-dən çox insan işləyir.

Prezident İlham Əliyev: Konfet istehsal edirlər?

Nahid Bağırov: İris, konfet və un məmulatları. Cənab Prezident, İvanovka kəndində taxıl üzrə məhsuldarlıq keçən illə müqayisədə 2 dəfə yarım artıb. Keçən il hər hektardan 11 sentner idi, bu il artıq 28 sentnerdir.

Prezident İlham Əliyev: Nəyin hesabına? Yeni texnologiyaların və texnikanın?

Nahid Bağırov: Yeni texnologiyaların, azotun və digər gübrələrin düzgün, vaxtında verilməsi hesabına.

Prezident İlham Əliyev: Prinsipcə orada 28 sentnerdən artıq ola bilər. Əgər orada suvarma layihələri icra olunarsa, onda məhsuldarlıq artar.

Nahid Bağırov: Qara torpaqları var.

Prezident İlham Əliyev: Ümumiyyətlə, İsmayıllının torpağı çox yaxşıdır, münbitdir. Bəs, orta məhsuldarlıq nə qədərdir?

Nahid Bağırov: Keçən il 35 sentner idi, bu il 36 sentnerə yaxın olacaq.

Prezident İlham Əliyev: Yaxşıdır. Bəs, digər işlər necədir?

Nahid Bağırov: Cənab Prezident, bundan başqa, "Coca-Cola" və "Efes" zavodları ilə danışıqlar aparırıq. Artıq gəliblər, geoloqlarımız araşdırıblar, demək olar ki, 80 faiz razılıq veriblər, pandemiya dövrünün qurtarmağını gözləyirik.

Prezident İlham Əliyev: Zavodun tikintisinə investisiya qoyacaqlar?

Nahid Bağırov: Bəli. "Coca-Cola" və "Efes" zavodları. Onlar bir qrup olduğu üçün istəyirlər ki, ikisi də bir yerdə olsun. Artıq yer də ayırmışıq.

Prezident İlham Əliyev: Çox yaxşı. Bu, yeni dayanacaqdır?

Nahid Bağırov: Bəli, cənab Prezident. Bunu ilk dəfə olaraq İsmayıllıda tətbiq etdik.

Prezident İlham Əliyev: Gözəldir.

Nahid Bağırov: Bundan şəhərimizdə üç yerdə qoymağı nəzərdə tutmuşuq. Həmçinin elektrobus da sifariş etmişik. Yeni dayanacaq səkkiz oturacaqlıdır. Bu, yerli məhsuldur, cənab Prezident.

Prezident İlham Əliyev: Bu, harada istehsal olunur?

Nahid Bağırov: Azərbaycanda, Balaxanıda, texnoparkda.

Prezident İlham Əliyev: Texnoparkda?

Nahid Bağırov: Bəli, cənab Prezident, icazə versəniz, bunun filialını İsmayıllıda açardıq. Sahibkar özü də istəyir.

Prezident İlham Əliyev: Əlbəttə, açın, həm buranı, həm də ətraf rayonları nəzərə alın. Düzdür, indi turizm yoxdur, amma karantin bitsin, hesab edirəm ki, daxili turizmlə bağlı yaxşı işlər görüləcək.

Nahid Bağırov: Artıq onunla da bağlı işlərə başlamışıq.

Prezident İlham Əliyev: Çox yaxşı.

Nahid Bağırov: Çox sağ olun, cənab Prezident.

İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllının Basqal kəndində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına mərkəz barədə məlumat verdi.

Bildirildi ki, rayon əhalisinin böyük əksəriyyəti bölgə üçün ənənəvi olan kənd təsərrüfatı, eləcə də xalçaçılıq, toxuculuq, misgərlik, kəlağayı istehsalı və sair qədim sənətkarlıq növləri üzrə istehsal sahələrində çalışır. Eyni zamanda, rayonda işsiz və işaxtaranlar fəal məşğulluq proqramlarına da cəlb olunurlar. Prezident İlham Əliyev mərkəzin təməlini qoydu.

Qeyd olundu ki, son 3 ildə İsmayıllıda 260 nəfər özünüməşğulluq proqramına cəlb edilərək proqram əsasında verilmiş mal və materiallar hesabına kiçik ailə müəssisələrini yaradıb. Bu il isə rayonda daha 126 ailənin bu proqram çərçivəsində kiçik təsərrüfatlarını yaratması üçün işlər aparılır. Tikiləcək "DOST Evi" əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayacaq.

İyulun 29-da İsmayıllı rayonunda Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, 3,8 milyon investisiya xərci hesabına tikilmiş 8 kilometrlik yol 2 min 800 nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirir. Yolboyu bütün lazımi infrastruktur qurulub. Bu yolun tikintisi həmin kəndlərdə yaşayan əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının vaxtında bazarlara və digər satış məntəqələrinə çatdırılmasına əlverişli şərait yaradacaq. Sonra dövlətimizin başçısına Quşencə-Zoğallıq avtomobil yolunun tikinti layihəsi təqdim olundu.



Bildirildi ki, üç min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən bu yolun tikintisi məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 25 iyun tarixli Sərəncamına əsasən, 2,9 milyon manat vəsait ayrılıb və tikinti işləri başa çatıb. Uzunluğu yeddi kilometr olan bu yol yaşayış məntəqələri arasında və rayon mərkəzinə gediş-gəlişi xeyli asanlaşdırıb. Prezident İlham Əliyevə bütövlükdə ölkə üzrə kənd yollarının tikintisi vəziyyəti barədə də məlumat verildi.

İyulun 29-da İsmayıllıda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı xəstəxanada yaradılan şəraitlə tanış oldu. Bildirildi ki, modul tipli digər xəstəxanalarda olduğu kimi, bu səhiyyə ocağında da orta ağırlıqlı simptomları olan infeksion koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şərait yaradılıb. Burada ağır simptomları olan xəstələrin qəbulu üçün əlavə avadanlıqlarla təchiz edilməklə müvafiq təkmilləşdirilmə işləri görülür. Üç korpusdan ibarət, 100 palatası və 200 çarpayı yeri olan bu xəstəxana kompleksi mərkəzləşdirilmiş Oksigen Generator Sistemi, həmçinin havalandırma sistemi ilə təchiz edilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Balakən şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da 320 şagird yerlik Balakən şəhər Uşaq İncəsənət Məktəbinin yeni binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Balakən regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib. Prezident İlham Əliyev mərkəzdə yaradılan şəraitlə tanış oldu. Sonra dövlətimizin başçısı ASAN könüllüləri ilə görüşdü. Dünən həmçinin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



# KİV nümayəndələri:

## “Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində mətbuatımız yeni inkişaf mərhələsini yaşayır”

***KİV nümayəndələrindən Prezident İlham Əliyevə çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezident saytına istinadla məktubların bir neçəsini təqdim edir.***

“Xəzər” Televiziyasının Baş direktoru Murad Dadaşov: “Möhtərəm cənab Prezident. Milli mətbuatımızın 145 illik yubileyi münasibətilə KİV nümayəndələrinə, Milli Televiziya və Radio Şurasına göstərdiyiniz maddi və mənəvi dəstək hər birimizi ürəkdən sevindirdi. Dünyanın pandemiya ilə mübarizə apardığı çətin bir vaxtda Milli Mətbuat və Jurnalistika gününün ən yüksək səviyyədə qeyd olunmasının, bizə göstərilən qayğı və diqqətin çox dərin kökləri var. Hələ 1998-ci il avqustun 6-da ümummilli liderimiz Heydər Əliyevin imzaladığı Sərəncamla mətbuat üzərindən senzuranın götürülməsi, 1999-cu ildə KİV haqqında Azərbaycan Respublikasının Qanununun, digər hüquqi-normativ aktların qəbulu, Sizin 2008-ci il 31 iyul tarixli Sərəncamınızla “KİV-in inkişafına Dövlət Dəstəyi Konsepsiyası” kimi vacib sənədin qəbul olunması dövlətimiz tərəfindən azad sözə, həqiqətə, ədalətə verilən qiymətdir. Hörmətli cənab Prezident, mükafata - “ Tərəqqi” medalına layiq gördüyünüz jurnalistlər arasında rəhbəri olduğum “Xəzər” Televiziyasının da 4 əməkdaşı var. Bu yüksək qiymət məni və kollektivimizi sevindirməyə bilməz. Bu dəyərə, bu diqqətə görə şəxsən öz adımdan və “Xəzər” Televiziyası ailəsi adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bir daha bildirmək istəyirəm ki, biz KİV nümayəndələri olaraq hər bir məqamda Sizin siyasətinizi dəstəkləyirik, dövlətimizin yanındayıq”.

“Trend” İnformasiya Agentliyinin Baş direktoru İlqar Hüseynov: “Hörmətli cənab Prezident. Sizin və hörmətli Mehriban xanım Əliyevanın Azərbaycanda medianın inkişafına dövlət səviyyəsində göstərdiyiniz qayğı və diqqət bu sahənin müasir standartlara uyğun inkişafını stimullaşdırmaqla yanaşı, jurnalist peşəsinin nüfuzunun artmasına xidmət edir. Müstəqillik dövründə mətbuatımız sözün əsl mənasında önəmli keyfiyyət transformasiyasından keçib, beynəlxalq inteqrasiyaya istiqamətlənib və bu gün nüfuzlu informasiya kommunikasiya resursları ilə bir sırada dayanmaq üçün ciddi səylər göstərir. Milli mətbuatımızın 145 illiyi münasibətilə media nümayəndələri mükafatlandırıldı, onların məsuliyyət, dəqiqlik, qərəzsizlik, vətənpərvərlik tələb edən fəaliyyəti yüksək qiymətləndirildi. Azərbaycan mətbuatında sözü, qələmi ilə tanınan media işçiləri orden və medallarla təltif edildilər, fəxri diplomlara, fəxri adlara və fərdi təqaüdlərə layiq görüldülər. Mənim üçün çox şərəfli və qürurvericidir ki, həmkarlarım arasında mənim də adım yer alıb. Özümün və rəhbərlik etdiyim böyük media ailəsinin adından Sizə, cənab Prezident, bu diqqətinizə görə dərin minnətdarlığımı ifadə edir və bildirirəm ki, bundan sonra da Vətənimizin rifahı, parlaq gələcəyi naminə qarşımıza qoyulan məqsəd və istiqamətlərdə fəaliyyətimizi əzmlə davam etdirəcək, daim Azərbaycanın haqq səsi, Sizin sadiq söz silahdaşınız olacağıq”.

“Xalq qəzeti”nin baş redaktoru Həsən Həsənov: “Hörmətli cənab Prezident. Sizin dövlətçilik fəaliyyətinizin təhlili göstərir ki, ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş mükəmməl inkişaf konsepsiyası uğurla həyata keçirilir. Siz yüksək liderlik keyfiyyətləriniz, siyasi prosesləri yönəltmək məharətiniz, taleyüklü, strateji əhəmiyyətli qlobal proqram və layihələr sayəsində Azərbaycanı sabit iqtisadiyyata malik, elmin, təhsilin, mədəniyyətin sürətlə inkişaf etdiyi, ictimai münasibətlərdə demokratik prinsiplərin bərqərar olduğu müasir dövlətə çevirmək arzularımızı reallaşdıraraq, xalqımızın böyük hörmət və məhəbbətini qazanmısınız. Möhtərəm cənab Prezident, müstəqil mətbuatın formalaşmasına və inkişafına yönələn Heydər Əliyev siyasəti bu gün Sizin tərəfinizdən yaradıcılıqla davam etdirilir. “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin qeyd olunması haqqında” 2020-ci il 30 iyun tarixli Sərəncamınız obyektivlik, kreativlik, rasionallıq, operativlik kimi faktorları yaradıcılığın başlıca meyarları kimi dəyərləndirən jurnalistlərin böyük ruh yüksəkliyi ilə qarşılandı. Zati-aliləri, iyulun 22-də imzaladığınız Sərəncama uyğun olaraq kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin bir qrupunu orden və medallarla, fəxri adlarla, “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif etdiyinizə, fərdi təqaüdə layiq gördüyünüzə, mətbuata əlavə maliyyə yardımı ayırdığınıza görə Sizə dərin təşəkkürümüzü bildiririk. Möhtərəm cənab Prezident, “Xalq qəzeti”nin kollektivi Sizin rəhbərliyinizlə görülən işləri, qazanılan böyük uğurları işıqlandırmaqdan qürur hissi keçirir, şərəf duyur”.

“SƏS” qəzetinin baş redaktoru Bəhruz Quliyev: “Möhtərəm cənab Prezident. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Siz hər zaman mətbuatın inkişafına və tərəqqisinə olan dəstəyinizi göstərməklə yanaşı, jurnalistləri ən yaxın köməkçiləriniz kimi qiymətləndirmisiniz. Mətbuatımızın yubileylərinin qeyd edilməsində, media nümayəndələrinin təltif olunmasında, jurnalistlərin sosial problemlərinin həlli istiqamətində daim təqdirəlayiq addımlar atmaqla yanaşı, həm də qayğınızı əsirgəməmisiniz. Bu sahəyə aid sərəncamlarınız və verdiyiniz mühüm qərarlar mətbuatımızın 145 illik yubileyində də öz təsdiqini tapdı. Xüsusilə, dünyanı cənginə alan COVID-19 pandemiyası və işğalçı Ermənistanın hərbi təxribatlarına qarşı mübarizə tədbirlərinin gücləndirildiyi bir vaxtda, Sizin mətbuat nümayəndələrini təltif etməyiniz bizlərə sonsuz fərəh və sevinc hissləri yaşatdı. Müstəqil mətbuatımızın və ulu öndər Heydər Əliyev ideyalarına söykənən, eləcə də dövlətçilik ənənələrimizin ilk carçılarından olan “SƏS” qəzetinin əməkdaşlarının da bu sırada yer alması bizə ikiqat sevinc bəxş etdi. Əməyimizə verdiyiniz yüksək qiymətə görə, Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, “SƏS” qəzetinin kollektivi öz dövlətçilik mübarizəsi ənənəsi ilə bundan sonra da həyata keçirdiyiniz siyasəti var gücü ilə dəstəkləyəcək, öncül təbliğatçınız və əqidə dəstəkçiniz olmaqla sədaqətini nümayiş etdirəcək”.

“Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı: “Hörmətli cənab Prezident. Azərbaycan milli mətbuatının yaranmasının 145-ci ildönümü münasibətilə imzaladığınız Sərəncama əsasən, bir qrup vətənpərvər qələm əhlinə müxtəlif mükafatlar, fəxri adlar verilib. Çox xoşdur ki, bu sırada mənim də adım var, Azərbaycan Respublikasının “Əməkdar jurnalisti” adına layiq görülmüşəm. Sizin qayğınızla əhatə olunan Azərbaycan mətbuatının bir nümayəndəsi olaraq qeyd edim ki, son 15 il ərzində rəhbərlik etdiyim “Şərq” qəzetinin 4 əməkdaşı müxtəlif dövlət təltifi ilə mükafatlandırılıb, 5 əməkdaşı evlə təmin olunub. Hazırda “Şərq” qəzeti gündəlik nəşrini bərpa edib, rəngli formatda işıq üzü görür. Cənab Prezident, mətbuatın cəmiyyətdə əhəmiyyətli rolunu hər zaman diqqətdə saxladığınıza, peşə fəaliyyətimizi dəyərləndirdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Apardığınız ardıcıl, dinamik siyasətin nəticələri media sektorunda öz bəhrəsini verir, Həsən bəy Zərdabi ənənələrinə söykənən milli jurnalistika sistemimiz növbəti inkişaf mərhələsini yaşayır. Sizin qətiyyətiniz, iradəniz və məqsədyönlü siyasətiniz nəticəsində düşmənə aman verməyən yenilməz Azərbaycan Milli Ordusu kimi, bu gün güclü söz, mətbuat, jurnalist ordusu da formalaşıb. Bu möhtəşəm ordu Azərbaycan dövlətinin yanındadır. Əməyimə, fəaliyyətimə verdiyiniz yüksək qiymətə görə sağ olun, cənab Prezident”.

“Vətən səsi” qəzetinin baş redaktoru Elşən Əliyev: “Möhtərəm cənab Prezident. Məni “Əməkdar jurnalist” fəxri adına layiq gördüyünüz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Mətbuatda 40 illik fəaliyyətimə verdiyiniz bu yüksək dəyər məni sevindirir, qürurlandırır. Biz ölkəmizin ən yeni tarixinin canlı şahidləriyik, Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində və sonrakı illərdə ağır sınaqlardan keçmişik. Yalnız ulu öndər Heydər Əliyevin cəsarəti və müdrikliyi sayəsində dövlətimiz həqiqi müstəqilliyə, xalqımız əmin-amanlığa qovuşub. Bütün sahələrdə, o cümlədən mətbuatın inkişafında yeni mərhələ başlanıb, jurnalist peşəsinin nüfuzu yüksəlib. Kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün ölkəmizdə yaradılmış şəraitdə hər bir istedadlı jurnalistin xalq və dövlət maraqlarına xidmət etməklə peşə uğurları qazanmaq imkanı var. Cənab Prezident, mən Ağdamdan Bakıya - rayon qəzetindən böyük mətbuata adi jurnalist kimi gəlmişdim. Sizin siyasətiniz və sərkərdəliyinizlə işğaldan azad ediləcək doğma yurda bu peşənin ən yüksək titulu ilə qayıdacağam. Bu qayıdışın tezliklə gerçəkləşməsi üçün hər bir əmrinizə hazıram və Sizə bir daha təşəkkür edirəm”.

Real Televiziyası Baş direktorunun layihələr üzrə müavini Samirə Səfərəliyeva:”Möhtərəm cənab Prezident. Milli Mətbuatımızın 145 illik yubileyi münasibətilə məni “Tərəqqi” medalına layiq görməyinizdən son dərəcə qürur hissi keçirirəm. Sizin mətbuata xüsusi diqqət və qayğınız sayəsində bu gün ölkəmizdə kütləvi informasiya vasitələri inkişaf edir, müasir dünyanın tələbləri ilə uyğunlaşmağa çalışır. Bu ənənələr Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Təsadüfi deyil ki, elə ali məktəbdə oxuduğum zaman diplom-buraxılış işim də məhz Ümummilli Liderimizlə bağlı olub. Bu gün Sizin sayənizdə yaranan xalq-hakimiyyət birliyi bütün çətinlikləri inamla arxada qoyur, bizim parlaq gələcəyimizi və firavanlığımızı təmin edir. Amma biz jurnalistlərin də üzərinə düşən vəzifə Vətənimizi, dövlətimizi qorumaq, Sizin müdrik rəhbərliyinizlə qələbələrə doğru addımlamaqdır. Şəxsən mən uzun illər Azərbaycan mediasında çalışan bir jurnalist kimi, bunu dərk edirəm və daim Prezidentimizin yanındayam”.

“Trend” İnformasiya Agentliyinin mədəniyyət şöbəsinin direktoru Vüqar İmanov:”Hörmətli cənab Prezident. Milli mətbuatımızın 145 illiyi münasibətilə “Tərəqqi” medalı ilə təltif edilməyim 20 illik jurnalistlik fəaliyyətimdə mənim üçün ən ali mükafat, KİV-lərin inkişafına, milli mədəniyyətimizin və digər sahələrin ölkəmizdə və beynəlxalq səviyyədə təbliğatına cüzi töhfəmə verilən yüksək qiymətdir.

Buna görə Sizə səmimi minnətdarlığımı bildirirəm. Bu, mənim üçün böyük şərəf və ölkəmizin rifahı naminə bundan sonrakı peşəkar fəaliyyətim üçün stimuldur. Siz Prezident, Ali Baş Komandan və dünya azərbaycanlılarının lideri kimi vətənpərvərlik və yüksək mənəvi-əxlaqi dəyərlər, Vətənə hədsiz sevgi nümunəsi göstərirsiniz. Bu hər birimiz üçün vətəndaşlıq nümunəsidir. Biz jurnalistlər Sizin köməkçiləriniz olaraq bundan sonra da doğma Azərbaycanın inkişafı və firavanlaşması işinə töhfə verəcəyik”.

Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlayanlar sırasında “Xəzər FM” radiosunun direktoru Denis Mayorov, jurnalistlər Şərif Ağayarov, İsmayıl İsmayılbəyli və başqaları da var.

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycan Milli Mətbuatının 145 illik yubileyi münasibətilə imzaladığı sərəncamlara əsasən 3 nəfər Prezidentin fərdi təqaüdünə, 2 nəfər “Əməkdar mədəniyyət işçisi”, 38 nəfər “Əməkdar jurnalist” fəxri adlarına layiq görülüb. Bir nəfər 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni, 2 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, 3 nəfər “Dostluq” ordeni, 67 nəfər “Tərəqqi” medalı, 22 nəfər isə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilib.

# "Euractive" platforması: "Qafqaz: Ermənistanın "yeni ərazilər üçün yeni müharibəsi"


EURACTIV | The Capitals | Newsletters | Login / Register | Events | EURACTIV Network | Search
Agrifood | Digital | Economy & Jobs | Energy & Environment | Global Europe | Health | Politics | Transport

Caucasus: Armenia's 'New war for new territories'

DISCLAIMER: All opinions in this column reflect the views of the author(s), not of EURACTIV Media network.

Stakeholder Opinion

By James Wilson | Jul 27, 2020 (updated: 16:07)

Popular articles
1. The Dutch have decided: Burning biomass is not sustainable
2. Contribute to EURACTIV
3. Sweden's night train to Brussels to debut in 2022
4. Fearing second COVID wave, Belgian government passes tighter measures
5. Coronavirus: What's happening in Europe
6. Illiberal democracy in Slovenia? Yes and no
7. Council brokers historic stimulus pact as budget cuts, rule of law retreat plague deal
8. Macron seeks EU sanctions over Turkish 'violations' in Greek waters

İyulun 12-dən etibarən işğalçı erməni qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində törədilmiş hərbi təxribatlar və bununla bağlı xarici ölkələrdəki azərbaycanlı icmanın üzvləri tərəfindən keçirilən aksiyalar zamanı dinc nümayişçilərə qarşı radikal erməni qüvvələri tərəfindən törədilən vandalizmlər fonunda Ermənistanın məkrli simasının beynəlxalq arenada bir daha ifşa edilib. Xüsusilə Brüsseldə - Avropanın siyasi paytaxtında məhz Avropa İttifaqı müstəvisində Azərbaycanın haqq sözünün dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm nəticələr əldə olunub. Belə ki, son günlər "Euractive", "EU Reporter", "Diplomat Magazine", Avropa İttifaqının siyasəti üzrə ixtisaslaşmış və geniş oxucu kütləsinə malik digər bu kimi multimedia platformalarında Ermənistanın son hərbi təxribatları barədə silsilə yazılar dərc edilib. Məhz bu məqalələr ölkəmizin maraqlarının və ədalətli mövqeyinin dünya birliyinə düzgün və vaxtında çatdırılması üçün etibarlı mexanizm kimi nəzərdən keçirilməlidir. Hesab edirik ki, müvafiq istiqamətdə davamlı fəaliyyət Aİ də daxil olmaqla bütün çoxtərəfli əməkdaşlıq platformlarında Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin və ətraf ərazilərinin azad edilməsi istiqamətində aparılan danışıqlarda siyasi qərarvericilərə təsirsiz ötüşməyəcək.

AZƏRTAC xəbər verir ki, bu kontekstdə "Euractive" müstəqil media şəbəkəsində yayımlanmış "Qafqaz: Ermənistanın "yeni ərazilər üçün yeni müharibəsi" sərlövhəli məqalədə Ermənistanın işğalçı siyasəti açıq-aydın ifşa edilir.

Məqalənin müəllifi, Təkmil İdarəçilik Beynəlxalq Fondunun təsisçisi və direktoru Ceyms Uilson hazırda dünyanın ən aktual problemi fonunda Ermənistanın eqoist siyasətini təhlil etməklə onun mənfur niyyətini ortaya qoyur. Bildirir ki, Avropa və bütün dünya koronavirusla mübarizə aparmaq və pandemiyadan təsiri ilə zəifləmiş iqtisadiyyatını dirçəltmək üçün yollar axtararkən, iyulun 12-də Ermənistan Azərbaycanla sərhəddə təxribat törətdi. Müəllif əminliklə bəyan edir ki, istənilən rasional təhlilə əsasən, sərhəddə baş verən son atışmalarda yalnız Ermənistan amili var idi.

Dağlıq Qarabağdan 300 kilometr şimalda - iki ölkənin sərhədində gedən döyüşlərin 20 nəfərədək hərbi və mülki şəxsin həyatını itirməsi ilə nəticələndiyini bildirən müəllif Aİ-nin tərəflərə ünvanladığı çağırışları xatırladır.

Ceyms Uilson tərəflər arasında münaqişənin əsas səbəbinin beynəlxalq səviyyədə Azərbaycanın tərkib hissəsi kimi tanınan, lakin hazırda Ermənistanın işğalı altında olan Dağlıq Qarabağın olduğunu xatırladır. Qeyd edir ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi faktı dünya ictimaiyyəti tərəfindən yekdilliklə qəbul olunub.

Müəllif yazıda Ermənistanın üçüncü tərəflərin hərbi və siyasi dəstəyinə acizanə ehtiyacı olduğunu bildirir. Qeyd edir ki, Rusiyanın rəhbərlik etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) güvənən Ermənistan Moskvanın və KTMT-nin Dağlıq Qarabağ məsələsində Ermənistana hərbi dəstək verməməsindən təəccüblənir.

Məqalədə, həmçinin koronavirus pandemiyasının Ermənistanı siyasi, sosial, iqtisadi təsirləri təhlil olunur. Bildirilir ki, hələ ilin əvvəlində - mart ayında ölkədə fövqəladə vəziyyət elan edilib və bunun nəticəsində iqtisadi fəaliyyət iflasa uğrayıb, işsizlik artıb, səhiyyə sistemi böhranla üzləşib.

Ermənistanın siyasi idarəçiliyindəki problemlərə toxunan Ceyms Uilson bildirir ki, baş nazir Nikol Paşinyan böhranın idarə edilməsində səmərəsiz fəaliyyətinə və pandemiya ilə mübarizədə uğursuzluğuna görə müxalifət tərəfindən sərt tənqid olunur. Diqqətə çatdırılır ki, diqqəti pandemiyanın idarə edilməsindəki uğursuzluqdan yayındırmaq üçün Paşinyanın Azərbaycanla sərhəddə təxribata ehtiyacı var idi. Bu dəfə təxribatlar əvvəlcədən hazırlanmışdı. İyulun 10-da Ermənistanın yenilənmiş milli təhlükəsizlik strategiyası vasitəsilə Rusiya ilə ittifaqına və KTMT-yə üzvlüyünə diqqət çəkildi. Başqa sözlə, atışmadan bir neçə gün əvvəl Kremlə kollektiv təhlükəsizliyə dair xatırlatma göndərildi. Hərbi baxımdan Azərbaycanın şimal-qərb bölgələri erməni hərbçilər üçün asan qənimət kimi görünə bilərdi. Ermənistan Azərbaycan ərazisinə irəliləməyi və yeni ərazilər işğal etməyə ümid edirdi. Bu yeni taktika həm də Ermənistanın müdafiə naziri David Tonoyanın "Yeni ərazilər uğrunda yeni müharibə" strateji doktrinasına uyğun gəlir.

Bu regionun döyüş meydanı kimi seçilməsinin digər səbəbinin yaxınlıqdan keçən əsas enerji infrastrukturları olduğunu bildirən Ceyms Uilson deyib: "Son onilliklərdə Azərbaycan tərəfindən təşəbbüsü və birbaşa iştirakı ilə inşa edilmiş Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında vacib enerji və nəqliyyat dəhlizləridir. Azərbaycan və Türkiyə ilə münasibətdə düşmənçilik siyasəti sayəsində bu cür vacib layihələrdən kənar qalmış Ermənistan iqtisadi və siyasi təzyiq göstərmək üçün bu infrastrukturları hədəf almaqla təhdid edir".

Müəllif hesab edir ki, Ermənistanın tərəfindən başladılan sərhədyanı toqquşmalar genişmiqyaslı müharibəyə, gələcəkdə isə böyük geosiyasi qarşıdurmaya çevrilə bilər.

Sonda müəllif bildirir ki, Avropa İttifaqı Qafqazda dayanıqlı sülhə nail olmaq üçün bölgə ilə bağlı diplomatiyasını gücləndirməli, Paşinyanın regionu heç kimin xeyrinə olmayacaq müharibəyə sürükləyən təxribatçı hərəkətlərdən çəkindirmək istiqamətində fəal səylər göstərməlidir.

# David Tonoyan: "Azərbaycan-Türkiyə birgə hərbi təlimlərindən Ermənistan narahatdır"



Ermənistanın müdafiə naziri David Tonoyan bu gün Fransanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Conatan Lakotanı qəbul edib. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, görüşdə ikitərəfli əməkdaşlığın aktual problemləri və regional təhlükəsizlik məsələləri müzakirə olunub. Məlumata görə, Ermənistan-Azərbaycan sərhədindəki vəziyyəti, qüvvələrin təmas xəttini təqdim edən Müdafiə naziri gərginliyin azaldılması və davam etməsi məsələsində Rusiya Federasiyasının, ABŞ-ın, xüsusən də Fransanın, ATƏT-in Minsk Qrupu həmsədrlərinin rolunun vacibliyini qeyd edib.

David Tonoyan ortaq Türkiyə-Azərbaycan təlimlərinə toxunaraq qeyd edib ki, hərbi baxımdan onların taktiki xarakteri narahatlıq yaratmaya bilər, amma təlimlərin Ermənistan Respublikasının sərhədləri, müdafiə strukturları və digər infrastrukturlara yaxın ərazilərdə keçirilməsindən, Azərbaycan-Türkiyə birgə hərbi təlimlərindən Ermənistan narahatdır. Müdafiə naziri Ermənistan tərəfinin təlimlərin gedişatını və gələcək inkişafları yaxından izləyəcəklərini vurğuladı.

# DSX-nın hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilib



28 iyul 2020-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.SİA-ya qurumun mətbuat mərkəzindən verilən məlumata görə, gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra mərasim açıq elan edilib. Dövlət himninin səslənməsi ilə başlayan mərasimlərdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamə-tindəki xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasını xüsusi qeyd ediblər.

Çıxışlarda Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminlik ifadə edilib. Tədbirdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan ordusunun törətdiyi təxribatın qarşısının qəhrəmancasına alındığı, düşmənə sarsıdıcı zərbələr endirilərək məğlubiyyətə uğradıldığı xüsusi vurğulanıb. Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

# Azərbaycan-Türkiyə genişmiqyaslı birgə hərbi təlimləri başlayıb



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq bu gündən ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri başlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, birgə təlimlərdə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilib.

Plana əsasən təlimlər avqustun 1-dən 5-dək quru qoşunlarının da cəlb edilməsi ilə Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə isə iyulun 29-dan avqustun 10-dək Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçiriləcək.



# YAP İcra Katibliyində “İnformasiya resurslarında milli maraqlarımızın təmin edilməsi” mövzusunda videokonfrans keçirilib

***İyulun 29-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində “İnformasiya resurslarında milli maraqlarımızın təmin edilməsi” mövzusunda videokonfrans keçirilib.***

Videokonfransın moderatoru Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, Azərbaycan uzun illərdir müharibə şəraitində yaşayır və torpaqlarımız işğaldan azad edilənə qədər də bu vəziyyət davam edəcək. Ancaq hazırkı tarixi mərhələdə müharibə təkcə hərbi müstəvidə deyil, paralel olaraq bir neçə müstəvidə aparılır. Onun sözlərinə görə, bu il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tovuz rayonu ərazisində erməni işğalçı ordusunun törətdiyi təxribat və ondan sonra yaşananlar bir daha onu göstərdi ki, hərbi, siyasi, diplomatik, ideoloji, psixoloji müstəvidə aparılan müharibə həm də informasiya müstəvisində aparılır və informasiya silahı ilə aparılan müharibə olduqca ciddi qəbul edilməlidir.

Hikmət Babaoğlu qeyd edib ki, son dövrlərdə internet resurslarında, sosial şəbəkələrdə aparılan informasiya müharibəsi bu resursların yumşaq güc vasitəsi kimi əhəmiyyətini bir daha ortaya çıxardı: “İnternet resurslarına, informasiyaya institusional forma verilməklə onu xüsusi mexanizmə çevirir, manipuliyasiya edir, subliminal mesaj ötürücüsünə çevirirlər. Bizə qarşı bunların hamısından düşmən tərəf istifadə etdi. Biz bu prosesdə güclü və zəif tərəflərimizi gördük. Güclü tərəfimiz, Milli Ordumuz, milli həmrəyliyimiz, Ali Baş Komandanımızın ətrafında sıx birləşməklə səfərbərliyə hazır olmamız, dünyanın ən müxtəlif ölkələrində təşkilatlanma bacarığımız və beynəlxalq hüquq müstəvisində haqqımızı sivil yolla tələb edə bilməyimiz idi. Amma təəssüflə qeyd etməliyik ki,

hələ də içərimizdə bəzi radikalların dağıdıcı fəaliyyətlə məşğul ola bilmələri və elə bizdən olan ayrı-ayrı fərdlərin sosial şəbəkələr və sosial media üzərindən milli birliyimizə kölgə salma cəhdləri də var. Eyni zamanda erməni terroru ilə dünyanın müxtəlif ölkələrində yenidən üz-üzə gəldik və bu prosesdə yenə də bəzi beynəlxalq təşkilatlar və insan hüquq müdafiəçiləri susdular”.

Hikmət Babaoğlu söyləyib ki, belə bir məqamda respubllikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müraciəti sadəcə müraciət deyil, həm də bir çağırış və milli fəaliyyət proqramıdır. Burada önə çıxan əsas istiqamətlər bizim informasiya platformamızdakı mübarizəmizdə əsl istiqamətverici tezislərdir.

Videokonfransda çıxış edən YAP-ın Sosial Media Qrupunun rəhbəri Ramil Vəlibəyov sosial şəbəkələrin real mənzərəsi haqqında məlumat verib. O qeyd edib ki, xaricdə məskunlaşmış bəzi azərbaycanlılar antiazərbaycançı mərkəzlərlə və erməni lobbisi ilə sinxron fəaliyyət göstərir.

Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev isə çıxışında bildirib ki, sosial şəbəkələr və milli maraqlar daim aktual mövzudur. Onu sözlərinə görə, ermənilərin son təxribatından sonra xalqımız, cəmiyyətimiz çox güclü həmrəylik nümayiş etdirdi. O, bugünlər Azərbaycan diasporunun da fəaliyyətini təqdir edib.

A.Quliyev baş verən son proseslərlə əlaqədar respubllikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həmvətənlərimizə müraciətinin əhəmiyyətini vurğulayıb. Bildirilib ki, Azərbaycan QHT-ləri beynəlxalq təşkilatlara müraciət edərək onların erməni təxribatlarına münasibət bildirmələrinin vacibliyini diqqətə çatdırıblar. Bu baxımdan, özünü insan haqlarının müdafiə təşkilatı kimi təqdim edən “Freedom House”, “Amnesty International” və “Human Rights Watch” təşkilatları törədilmiş hadisələrə ədalətli qiymət verməlidirlər.

Milli Məclisin deputatı Nizami Səfərov çıxışında bildirib ki, Ermənistanla Azərbaycan arasında mövcud olan problem qlobal xarakter daşıyır. Onun sözlərinə görə, ermənilər tarixən azərbaycanlılara qarı məkrli siyasət həyata keçirib və bunun nəticəsində torpaqlarımız işğal edilib, xalqımız soyqırımına məruz qalıb.

Millət vəkili qeyd edib ki, hazırkı dövrdə sosial şəbəkələr informasiya müharibəsində böyük təsir imkanlarına malikdir. Burada hər bir vətəndaş milli maraqlarımızı ciddi şəkildə qorumalıdır. Diqqətə çatdırılıb ki, 2004-cü ildə qəbul olunmuş milli təhlükəsizlik haqqında qanunda milli maraqlarımızın qorunması məsələsi öz əksini tapır.

Hazırda sosial şəbəkələrdə müəyyən dairələr tərəfindən dövlətimizə qarşı kampaniyaların aparıldığını, ictimai rəyi çaşdırmağa yönəlmiş məlumatların yayıldığını deyən N.Səfərovun fikrincə, bu halların qarşısının alınması üçün sosial şəbəkələrin fəaliyyəti qanunla tənzimlənməlidir. O, bu istiqamətdə beynəlxalq təcrübənin olduğunu diqqətə çatdırıb və Sinqapurla Almaniyanın qanunvericilik təcrübəsindən danışıb.

Tədbirdə həmçinin Milli Məclisin deputatları Nigar Arpadarai, Razi Nurullayev, Fatma Yıldırım, Ramin Məmmədov, Jalə Əhmədova, sosial media üzrə ekspert Vüsal Məmmədov və “Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Azərbaycan Ordusunun Ermənistanın növbəti hərbi təxribatının qarşısını qətiyyətlə alması xalqımızda ruh yüksəkliyini daha da artırıb, cəmiyyətimiz ordumuz, dövlətimiz və Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevlə həmrəyliyini mütəşəkkil şəkildə nümayiş etdirib. Natiqlər həmçinin respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həmvətənlərimizə müraciətinin önəmini qeyd ediblər.

Bildirilib ki, xarici ölkələrdə Azərbaycan diasporu fəallıq göstərərək erməni təxribatına etiraz olaraq dinc aksiyalar keçirir. Amma ermənilər öz xislətinə sadiq qalaraq həmin aksiyaları pozmaq məqsədilə təxribatlara əl atırlar. Eləcə də, müəyyən dairələr sosial şəbəkələr vasitəsilə milli maraqlarımıza zidd kampaniya aparırlar. Çıxışlarda həmçinin diapor fəaliyyətinin gücləndirilməsi, eləcə də sosial şəbəkələrin fəaliyyəti ilə bağlı təkliflər səsləndirilib. Vurğulanıb ki, sosial şəbəkələrin fəaliyyətinin qanunla tənzimlənməsi günün ən aktual məsələlərindən biridir.

# Ermənistanın daha bir PUA-sı məhv edildi!



İyulun 29-da axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələri tərəfindən dərhal aşkarlanaraq məhv edilib.

# Azərbaycanda koronavirusdan daha 8 nəfər öldü




Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 363 yeni yoluxma faktı qeydə alınıb, 622 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 31 221 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 24 495 nəfər müalicə olunaraq sağalıb, 438 nəfər vəfat edib, 6 288 aktiv xəstənin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 817, ötən müddət ərzində isə ümumilikdə 708 632 test aparılıb.

# Ərdoğan: “Azərbaycanlı qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək səylərini dəstəkləyirik”



Azərbaycandakı qardaşlarımızın işğal altındakı torpaqlarını azad etmək və Vətənlərini müdafiə etmək səylərini də eyni anlayışla dəstəkləyirik. AZƏRTAC Anadolu agentliyinə istinadən xəbər verir ki, bu bəyanatı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Trabzon vilayətindəki Sümela Monastırının ikinci mərhələsinin və buradakı Ayasofya məscidinin bərpadan sonra açılış mərasimindəki çıxışında səsləndirib. Türkiyə lideri qeyd edib ki, özümüz və dostlarımız üçün necə lazımdırsa mübarizə aparacağıq.

# Kaliforniyanın vitse-qubernatoru Los-Ancelesdə azərbaycanlılara qarşı törədilən vəhşilikləri pisləyib




Kaliforniya vitse-qubernatoru Eleni Kunalakis iyulun 21-də ölkəmizin Los-Ancelesdəki baş konsulluğunun qarşısında erməni daşnakları tərəfindən dinc azərbaycanlılara qarşı həyata keçirilən vəhşilikləri pisləyən bəyanatla çıxış edib.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib. E.Kunalakis açıqlamada Azərbaycanın Los-Ancelesdəki baş konsulluğu qarşısında keçirilən nümayişin zorakılığa çevrilməsi və insanların yaralanması ilə nəticələnməsindən məyus olduğunu bildirib. O, hər kəsin öz fikrini ifadə etmək azadlığına malik olduğunu, ancaq başqalarına qarşı zorakılığın yolverilməzliyini vurğulayıb. Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev sözügedən hadisə zamanı Azərbaycan icmasının üzvlərinə qarşı törədilmiş vəhşilikləri pislədiyi üçün E.Kunalakisə təşəkkürünü bildirib. Baş konsul qeyd edib ki, bu cür vəhşiliklərə nə Kaliforniyada, nə də digər yerlərdə yol verməmək olmaz.

Qeyd edək ki, erməni daşnaklarının Los-Ancelesdəki bu zorakılığından sonra baş konsul N.Ağayev bir sıra yerli rəsmiləri hadisə barədə dərhal məlumatlandıraraq, onları bu zorakılığı pisləməyə çağırmışdı. 2019-cu ilin yanvarından Kaliforniya vitse-qubernatoru kimi çalışan E.Kunalakis ştatda bu vəzifəyə seçilən ilk qadındır. O, həmçinin 2010-2013-cü illərdə ABŞ-ın Macarıstanda səfiri vəzifəsində çalışıb.

# Vüqar Rəhimzadə: Siyasi islahatlar ölkədə yeni dialoq və əməkdaşlıq mühiti yaradıb



"Ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətinin qorunması davamlı inkişafın təminatında əhəmiyyətli rol oynayır. Dövlətimizin başçısı İlham Əliyev daim bu müqayisəli təhlili aparır ki, elə ölkələr var ki, iqtisadi inkişafı ilə diqqət çəkir, amma demokratik islahatlar aşağı səviyyədədir. Elə ölkələr də var ki, onlarda demokratik inkişaf geniş vüsət alsa da, iqtisadi tərəqqidən danışmaq qeyri-mümkündür. Azərbaycanın həmin ölkələrdən fərqli olaraq bu vəhdəti qoruması beynəlxalq səviyyədə də təqdir olunur. Bu gün böyük inamla qeyd etdiyimiz "Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüzdür" fikri də ölkəmizin bu sahədə qazandığı təcrübədən irəli gəlir. Uğurlarımıza söykənərək bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, dövlətimizin başçısının həyata keçirdiyi islahatlar kursu çərçivəsində yeni siyasi sistem konfiqurasiyasının formalaşması xüsusi əhəmiyyət kəsb edir. Hakimiyyətin hər üç qolunda - qanunvericilik, icra və məhkəmə-hüquq sistemində islahatlar yeni hədəflərin gerçəkləşməsini şərtləndirir. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, Milli Məclisdə kadr islahatlarının həyata keçirilməsində, həmçinin bir sıra şöbələrin birləşdirilməsində, eyni zamanda, yenilərinin yaradılmasında məqsəd qarşıya qoyulan hədəflərə çatmaq, yeni prioritetlər müəyyənləşdirməkdir. Prezident Administrasiyasında həyata keçirilən dəyişiklik nəticəsində Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması da hakimiyyətin siyasi islahatların daha da təkmilləşdirilməsində son dərəcə maraqlı olmasından xəbər verir." Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə diqqəti altıncı çağırış Milli Məclisə seçkilərə yönəldərək vurğulayıb ki, bu, bir daha Azərbaycanın demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün amillərin ölkəmizdə bərqərar olmasında maraqlı olduğunu ortaya qoydu: "Ölkəmizdə çoxpartiyalı sistemin formalaşması, həmçinin bütün siyasi partiyalara fəaliyyətləri üçün bərabər şəraitin yaradılması dövlət siyasətinin əsasını təşkil edir. 9 fevral parlament seçkilərində 20-yə yaxın siyasi partiyanın iştirakı deyilənlərin bariz nümunəsidir. Dövlətimizin başçısı İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasında da xüsusi vurğulayıb ki, seçkilərdə bütün siyasi qüvvələr iştirak ediblər. Nəticədə altıncı çağırış Milli Məclis çoxpartiyalı məclis kimi formalaşıb. Möhtərəm Prezidentimiz İlham Əliyev bu çağırışı da edib ki, siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində inkişaf etdirmək üçün parlamentdə təmsilçilik hüququ qazanmış bütün partiyaların nümayəndələri Milli Məclisin rəhbərliyində və parlamentin komitələrinin rəhbərliyində təmsil olunmalıdırlar. Milli Məclisin, onun komitələrinin rəhbərliyində müxalifət nümayəndələrinin təmsil olunması vətəndaş həmrəyliyi istiqamətində ən mühüm addımlardan biridir. Milli Məclisin sədr müavininin müxalifət təmsilçisi olması Azərbaycan parlamenti tarixində ilk addımdır".

"İki sahil" qəzetinin baş redaktoru qeyd edib ki, ölkəmizdə demokratiyanın vacib elementlərindən biri kimi siyasi partiyaların fəaliyyətinə hər cür şərait yaradılıb. Azərbaycanda çoxpartiyalı sistem mövcuddur: "Ölkəmizdə 40-dan artıq siyasi partiyanın qeydiyyatdan keçməsi, onların normal fəaliyyətləri üçün lazımi şəraitin yaradılması göz önündədir. 1992-ci ildə qəbul olunan "Siyasi partiyalar haqqında" Qanunun dövrün, zamanın tələblərinə cavab vermədiyini nəzərə alaraq yeni "Siyasi partiyalar haqqında" Qanunun qəbul olunması da deyilənlərin bariz nümunəsidir. Həmin Qanunda əsas məsələ siyasi partiyaların dövlət büdcəsindən maliyyələşməsidir. Hər zaman olduğu kimi, Qanuna qeyd edilən maddənin də əlavəsi zamanı buna ilk reaksiya verənlər özlərini müxalif düşərgənin radikal qanadının təmsilçiləri hesab edənlər oldular. Həmin ünsürlər ictimai fikri çaşdırmaq üçün belə bir əsassız fikri gündəmə gətirdilər ki, guya dövlət bu addımı ilə siyasi partiyaların fəaliyyətinə nəzarəti öz üzərinə götürür. Xarici anti-Azərbaycan dairələrin əlində alətə çevrilən və maliyyəsində qaranlıq məqamlar olan partiyaların belə bir xoşməramlı addımı ajiotajla qarşılaması təbiidir."

"Bu gün siyasi partiyalarla hakimiyyət arasında dialoqun formalaşması təqdirəlayiqdir, Azərbaycanın uğurlu inkişafı, beynəlxalq münasibətlər sistemində yeri və rolunun möhkəmləndirilməsi üçün olduqca mühüm addımdır" söyləyən V.Rəhimzadə əlavə edib ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin həm parlamentdə təmsil olunan, həm də parlamentdən kənarda fəaliyyət göstərən siyasi partiya rəhbərləri ilə silsilə görüşləri Azərbaycan hakimiyyətinin iqtidarla siyasi partiyalar arasında dialoq mühitinin formalaşmasında və möhkəmləndirilməsində maraqlı olmasının əyani təzahürüdür: "Hər bir görüş siyasi dialoqun möhkəmləndirilməsinə dəstəkdir. Görüşlərdə ölkədaxili siyasi münasibətlər, gerçək siyasi dialoq mühitinin yaradılması istiqamətində fikir mübadiləsi aparılır, hakimiyyət və siyasi partiya təmsilçiləri arasında görüşlərin davamlı olmasının vacibliyi bildirilir. Artıq siyasi partiyalar ümummilli məsələləri müzakirə edir, vahid mövqe ortaya qoyurlar."

Baş redaktor bildirib ki, iqtidar bütün siyasi partiyalara dialoq təklifi ilə müraciət edir: "Müxalif düşərgədə aparılan bölgü prinsipinə uyğun olaraq konstruktiv qanadın təmsilçiləri bu təşəbbüsə dəstək verib dialoqa qatılsalar da radikal qanadda yer alan ünsürlər hər zaman müxtəlif bəhanələrlə müzakirələrdən yayınmağa cəhd ediblər. Əvvəlki illərə nəzər saldıqda görürük ki, belə görüşlər davamlı keçirilir və hər bir dialoq üçün xüsusi müzakirə mövzusu seçilirdi. Lakin özlərini müxalif düşərgənin "başbilənləri" kimi göstərənlər həmin dialoq üçün elə məsələlərin müzakirəsini tələb edirdilər ki, onların heç bir əsası olmurdu. Burada məqsəd dialoqun baş tutmaması idi. Bu gün də eyni ab-hava yaşanmaqdadır. Özünü müxalifət adlandıran antimilli şura və AXCP siyasi dialoqdan imtina edir, onlara xaricdən verilən direktivlərə uyğun şəkildə davranırlar. Hər zaman qeyd etdiyimiz kimi, dağıdıcı ünsürlərin siyasi meydanı daralıb. Sadəcə özlərində cəsarət tapa bilmədikdəri üçün həqiqətləri etiraf edib siyasət meydanını tərk edə bilmirlər".

## Tiqran Atanesyan: "Ermənistanın rəhbərliyi tərəfindən mənə qarşı tapşırılanlar alçaqlıqdır"



Əminəm ki, Ermənistanın yüksək rəhbərliyi tərəfindən mənə qarşı tapşırılanlar alçaqlıqdır. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, bu barədə vəkil Tiqran Atanesyan bu gün jurnalistlərlə görüşü zamanı bir neçə ay əvvəl onun mənzilinə hücum barədə danışarkən deyib. "Yəni dörd yaramazın arvada və azyaşlı uşaqlara hücum etməsi normal haldırmı? Mən özüm dindirildimsə, ailə üzvlərim də dindirildisə, bu nə hücum idi?

Mən hiss edirəm ki, bu iyrənc yaramazları xilas etmək tapşırığı verilib. Çünki belə bir tapşırıq ölkənin yüksək rəhbərliyindən gəlməsəydi, əlbəttə ki, bu insanlar çoxdan tutular, ittiham olunardı. Mən bunu bilirəm və onlardan ədalət gözləmirəm. Ədalət öz qaydasında və vaxtında gələcək", deyə Tiqran Atanesyan bildirib. Xatırladaq ki, 22 may tarixində vəkil Tiqran Atanesyanın mənzilinə hücum təşkil edilib. Dörd nəfər onun mənzilinə girib. Vəkil həmin vaxt evdə olmayıb. Mənzildə həyat yoldaşı və azyaşlı uşaqları olub. Təcavüzkarlar vəkilə qarşı təhdidlər səsləndiriblər və çıxıb gediblər.

# Bəhruz Quliyev: "Hərbi təlimlər Ermənistanda ciddi təşviş yaradıb"



"Bildiyimiz kimi, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçiriləcək və bu kimi təlimlərin keçirilməsi ənənəvi hal almaqla, iki qardaş ölkə arasındakı strateji müttəfiqliyin ali, sarsılmaz və qüdrətli təcəssümü olamaqla yanaşı, eyni zamanda, düşmən tərəfə bir mesaj kimi də qiymətləndirə bilərik". Bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı fikirlərini şərh edərkən deyib.

Siyasi ekspert hesab edir ki, növbəti təlimlərdə qoşunların şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələrinin cəlb edilməsi onun miqyasının böyüklüyünə də dəlalət edir: "Belə ki, təlimlərin Bakı, Naxçıvan, Gəncə şəhərlərində, Kürdəmir və Yevlax rayonlarında keçirilməsi də məhz bu cür qənaətə gəlməyə zəmin yaradır. Lakin bu, daha bir gerçəkliyi ortaya qoyur - iki qardaş ölkənin regiondakı mühüm hərbi faktorunu, eləcə də siyasi- hərbi ideoloji reallığını. Çünki regionumuzun sərhədləri geostrateji baxımdan həssas məkanda yerləşir və nəzərə alsaq ki, burada Ermənistanın işğalçılıq maraqları hələ də qalmaqda davam edir, o cümlədən təcavüzkar ölkənin sivil hərbi mövqeyindən daha çox hərbi təcavüzkarlıq maraqları mövcuddur, bu zaman Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hər an istənilən vəziyyətə hazırlıqlı olmalarına ehtiyac duyulur".

"Daha bir məsələ iyulun 12-dən başlayaraq işğalçı Ermənistanın Tovuz rayonu istiqamətində dövlət sərhədimizdə silahlı təxribat törətməsi ilə bağlıdır", deyə qeyd edən Bəhruz Quliyev məhz həmin ərəfələrdə qardaş Türkiyə dövlətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla, bu ölkənin ali hərbi struktur rəhbərlərinin Azərbaycanın yanında olduqlarını və istənilən dəstəyi göstərəcəklərinə dair bəyanatlarını da xatırladıb: "Düşünürəm ki, bu geniş masştablı birgə hərbi təlimlər həmin bəyanatların davamıdır və artıq Ermənistanın hərbi-siyasi dairələri bu informasiyadan təlaş keçirməyə başlayıblar. Xüsusilə, Naxçıvanda keçirilən hərbi təlimlər öz miqyasına görə daha öncəki təlimlərdən daha geniş müstəvini əhatə edir. Hərbi təlimlər iki qardaş ölkənin strategiyalarının üst-üstə düşməsinin və sarsılmazlığının bariz göstəricisidir. İşğalçılar da bilməlidirlər ki, təcavüzkar siyasət uzun müddət davam edə bilməz və bütün bu kimi reallıqlardan nəticə çıxarmalıdırlar. Onu da qeyd edim ki, təlimlərin keçirilməsi artıq Ermənistan rəhbərliyi və sadə vətəndaşları arasında da ciddi şəkildə təşviş yatadıb. Elə hesab etmək olar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesində qarşı tərəfin indiyədək tutduğu anormal mövqeyindən imtina etməsinin və Azərbaycanın işğal olunmuş torpaqlarının geri qaytarmasının vaxtıdır".

# DTX "Muxtar"ı Rusiyada saxladı



Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkar edilməsi və qarşısının alınması, eləcə də beynəlxalq terrorçuluqla mübarizə istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks tədbirlər davam etdirilir. SİA Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadən xəbər verir ki, xarici xüsusi xidmət orqanlarının nəzarəti altında Azərbaycan Respublikası vətəndaşlarının seçilərək onlara radikal-ekstremist dini ideyaların aşılanması yolu ilə ölkə hüdudlarından kənarda hərbi təlimlərin keçirilməsi, şəxsiyyətləri gizlədilərək müxtəlif adlarla digər dövlətlərin ərazisindəki münaqişə ocaqlarında hərbi əməliyyatlara cəlb olunmaları barədə toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işi üzrə hazırda istintaq-əməliyyat tədbirləri aparılır. Araşdırmalar nəticəsində, Azərbaycan Respublikasının vətəndaşı Şükürov Mehdi Əflatun oğlunun ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terrorçuluq cinayət əməllərinin törədilməsi üsulları, odlu silahlardan, partlayıcı maddələrdən və qurğulardan, eləcə də digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə hazırlığı ilə əlaqədar təlim almasına, "Muxtar" ləqəbi ilə ölkə hüdudlarından kənarda ağır və xüsusilə ağır cinayətlər törətmək məqsədilə yaradılmış qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirak etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Mehdi Şükürov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.3,214-3.1-ci (terrorçuluq məqsədi ilə Azərbaycan Respublikasından kənarda təlim keçmə) və 12.1,279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilmişdir. Mehdi Şükürovun Rusiya Federasiyasının ərazisinə keçdikdən sonra gizləndiyi yer müəyyən edilmiş, o, beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində saxlanılmış və 2020-ci il iyulun 28-də Azərbaycan Respublikasına ekstradisiya olunmuşdur. Hazırda cinayət işi üzrə araşdırma davam edir.



# Emin Hüseynovun erməni sevgisi

***Düşündüyümüz kimi olmadı. Əslində, gözləyirdik ki, Tovuz təxribatından sonra müxalifət və xaricdəki radikal soydaşlar çəkici bir nöqtəyə vuracaq, Azərbaycanın haqq işini müdafiə edib, birlik nümayiş etdirəcəklər. Oradan bütün dünyaya bəyan edəcəklər ki, ser və senyorinalar, Ermənistan Azərbaycana təxribat edib, şəhidlərimiz olub. Yaxud, ən azından hərbi uğurumuza alqış deyəcəklər. Lakin heyhat, onlar doğulub çıxdıqları ölkəni nəinki müdafiə etdilər, əksinə bu təxribatın günahını rəsmi Bakıda gördülər. Gülüş doğuran məqam bundan ibarətdir ki, əksinə rəsmi Bakı bunu iki ölkə sınırında yox, işğal edilmiş ərazilərdə başlayardı ki, Aprel uğurunu davam etdirib daha neçə min kvadrat ərazini işğalçılardan azad etsin. Məgər Tovuz sınırında hansı uğur əldə etmək olardı ki, torpaqlar alınsın?***

Ermənistanın bu təxribatı zamanı Azərbaycan tərəfi yalnız düşmənin canlı qüvvəsini, texnikasını məhv edə bilərdi, bunu da etdi, özü də artıqlaması ilə. Gözləmək olardı ki, daxildəki radikal müxalifət və xaricdəki söyüş müxalifətinin üzvləri ən azından alqış etməsələr də, susacaqlar. Başa düşürük ki, müəyyən qurumlardan maliyyə aldıqlarına görə müdafiə edə bilməzlər, heç olmasa milli məsələdə susqunluq nümayiş etdirərdilər. Ancaq belə olmadı. Pul verən qurumlar onların qarşısında ciddi tələb qoydular ki, Tovuz hadisəsi və azərbaycanlıların səfirliklər, beynəlxalq qurumların qərargahları qarşısındakı aksiyalara kölgə salmalısız. Bununla da siqnal verildi. İşin dəhşətli tərəfi ondadır ki, onların hamısı eyni konteksli nitq söylədilər. Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli sanki o siqnalı gözləyirdilər.

Emin və Mehman Hüseynov qardaşları isə daha dərinə getdilər. Sənədlərin açılması ilə erməni olduqları sübuta yetirilən Emin Hüseynov beynəlxalq qurumlara müraciət etdi ki, Azərbaycan hakimiyyəti tərəfindən törədilən Tovuz təxribatı ətraflı araşdırılsın və qınayıcı bəyanatlar, o cümlədən sanksiyalar tətbiq edilsin. Bir də xaricdəki azərbaycanlılara aksiyalar zamanı ermənilərin zor işlətməsinin günahı rəsmi Bakıda axtarılsın.Görünür, Emin Hüseynovun nəinki siyasi, eləcə də fizioloji cəhətdən ermənilərə yaxınlığı özünü göstərir. Özünü demokratiya və azərbaycanlıların hüquqları uğrunda fəal mübarizə aparan Emin Hüseynov həqiqətən də ermənidir və təkzibedilməz faktlar bunu sübuta yetirdi. Onun mübarizəsi Azərbaycan hakimiyyəti ilə deyil, həm də məxsus olmadığı Azərbaycan xalqına qarşıdır. Elə dinc aksiyalarda azərbaycanlıların döyülməsində ermənilərin heç bir günahı olmadığını deməklə, qan qardaşlarına dəstək verdi. Bir daha xatırladaq ki, İbrahim Bədir-zadə və Mariya Yarullayevna Taynulinanın (milliyətcə krım tatarı) qızları Firəngiz Bədir-zadə onlar tərəfindən övladlığa götürülüb. Arxiv sənədləri də sübuta yetirdi ki, Hüseynov qardaşlarının anası Firəngiz Bədirzadə əvvəlcə "Yevgeniya Qriqoryevna Ovanesova" adını daşıyıb.

Doğum haqqında şəhadətnamədə erməni Arfeniya Sergeyevna Ovanesova anası olaraq göstərilir. Atasının adının qarşısı boşdur (çox güman ki, atasının adının qarşısına "Qriqoryevna" sonradan əlavə edilib). Bu baxımdan keçmiş soyadı Ovanesovanın üzərindən xətt çəkilərək Bədir-zadə ilə əvəz olunub. 1967-ci ildə, 20 yaşı olanda Yevgeniya Kustana şəhərinin (Qazaxıstan) nikah dairəsində qeyd edildiyi kimi, adını Firəngiz olaraq dəyişdirib. İşin dəhşətli tərəfi ondadır ki, "Azərbaycanda demokratiya uğrunda mübarizə aparan" iki əsas nəfərin anası erməni imiş. Bu da ictimaiyyətdən ciddi şəkildə gizlədilib.










Təbii ki, xüsusilə Azərbaycanı qaralayan, onun imicinin korlanması üçün erməni səfirindən tutmuş ermənipərəst beynəlxalq qurumların əməkdaşları ilə teztez görüşməsi, onlarla yemək-içmək masalarındakı gizli söhbətlərə qədər əlindən gələni edirmiş. Belə olan surətdə Emin Hüseynov xəyanətkar obrazında təbii görünür. Axı, qan qardaşları olan ermənilərə, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan hakimiyyətinə dəstək vermək onun "borcudur".

Tovuz təxribatı zamanı Azərbaycanın hərbi uğurunu gözləməyənlər, KTMT-dən imtina almağın qisası azərbaycanlı cildinə girmiş erməni Emin Hüseynovla alınacaqmış. Elə Emin Hüseynovun Varşavada ATƏT/DTİHB tədbiri zamanı verdiyi açıqlamada "azərbaycanlılar Dağlıq Qarabağdakı müharibə zamanı erməni jurnalistlərini qətlə yetiriblər" ifadəsini xatırlamaq kifayətdir ki, onun damarında erməni qanının axmasını bilinsin. Həmin çıxışdan sonra Ermənistan səfiri Edqar Vardanyanın onu ayaqüstə alqışlaması da düşmənə xidmətinə əsas verdi.

Axı, necə ola bilər ki, ermənilərin dediyini siz də deyirsiniz. Axı, necə ola bilər ki, bütün radikal müxalifət eyni sözü deyir. Sanki, printerdən eyni tezislər çıxarılıb və hansısa gizli qurum onları bir-bir paylayıb. Axı, niyə ABŞ Azərbaycana sanksiya tətbiq etməlidir. Bunun əsası odur ki, azərbaycanlılar dinc aksiya keçiriblər? Bu demokratik prinsiplərə zidd sayılmır axı. Bu o halda baş verər ki, rəsmi Bakı iki ölkə arasındakı münasibətləri pozan hansısa addım atsın. Azərbaycan hakimiyyəti isə strateji tərəfdaşlıq münasibətlərinə sadiq qalıbsa, hansı əsasla sanksiya tətbiq edilməlidir. Dünənə qədər çıxışlarınızda deyirdiniz ki, rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və onun beynəlxalq təşkilatların nəzərinə çatdırılmasında maraqlı deyil. Sən Emin Hüseynov deyirdin ki, rəsmi Bakı münaqişənin donmuş vəziyyətdə qalmasında maraqlıdır. Amma qəribə mənzərə yarandı. Rəsmi Bakı münaqişənin həllini yenidən dünyanın nəzərinə çatdırmaq üçün Azərbaycan diasporasının fəal olmasını tapşırandan sonra Emin Hüseynov başda olmaqla digər radikalların hücumları ara vermədi. Deməli, burdan belə məntiq çıxır ki, erməni lobbisi və onların maliyyəsi ilə fəaliyyətini quran radikal müxalifət münaqişənin beynəlxalq qurumların, xarici ölkələrin nəzərinə çatdırılmasında, münaqişənin status-kvodan çıxarılmasında maraqlı deyil və bunu istəmirlər. Deməli, status-kvo maraqlı qüvvələrə, xüsusilə erməni lobbisinə daha məqbul variantdır.

Beləliklə, Tovuz təxribatı və dinc aksiyalar göstərdi ki, Azərbaycana hücum edən və rəsmi Bakını günahlandıranlar erməni lobbisindən və gizli təşkilatlardan yalnız pul almırlar. Onlar həm də yaxındırlar, bağlıdırlar. Qan bağlılığı da bu xəyanətə təhrik edir. Biz bunu Emin Hüseynovun timsalında daha aydın gördük.

SİA-da dərc olunmuş digər linklərdən də oxuya bilərsiniz: https://sia.az/az/news/politics/813722.html

# Erməni orkestrinin bekvokalları kimlərdir?

## *Xainlər zümrəsi - Sevinc Osmanqızı, Arif Yunus, Leyla Yunus, Ramis Yunus, Arif Məmmədov, Emin Hüseynov və...*






***Nə qədər də ağrılı, acılı olsa da, milli heysiyyatımıza, qürurumuza toxunsa da, bir daha təəssüflə qeyd etməliyik ki, son vaxtlar - xüsusilə ermənilərin Tovuz təxribatlarından sonra içimizdəki xəyanətkarlar zümrəsi yenidən fəallaşmağa, baş qaldırmağa başlaıblar. Rellıqdan yanaşarsaq adları, soyadları ani-millilik, milli xainlik, satqınçılıq və s. bu kimi məsələlərdə hallanan, dillər əzbərinə çevrilən ünsürlər həmin addımları ilə bizləri qətiyyən təəccübləndirmirlər. Yəni onsuz da bilənyaxşı bilir onların kimlər olduqlarını. Ancaq xalqı hiddətləndirən, qəzəbə boğan faktor budur ki, onlar yenə də öz xain xislətlərində qalmağa davam etməkdədirlər. Beləleri üçün müqəddəs heç nə yoxdur, bircə amildən başqa - erməni çörəyi, məhz erməni çörəyi onların imtinaedilməz tikələrinə çevrilib.***

Yaxud, erməni orkestrinin arxa sıralarında boy-boya verməklə bekvokallıq edən bu zümrə erməni çörəyinə o qədər aludə olub, o qədər tamah salıb ki, artıq həmin çörəyin haramçılığı onların genlərinə qədər işləyib. Misal üçün, əgər bu gün onlara Azərbaycan çörəyi versən, həmin çörəyi nə çeynəyə, nə də uda bilərlər. Əslində düşmənə işləmək ənənəsinin başlanğıcını qoyan da bu gün onların içlərindədir. Onların bir neçəsi barədə bu yazında ayrı-ayrılıqda toxunacağam, hamısına isə nə vaxt, nə də zaman yetişər. Çünki faktlar, dəlillər, sübutlar kifayət qədər çoxdur!

### Leyla Yunusun qızı Dinara yazmışdı: "Azərbaycan əsgərləri cəbhədə ölsünlər, qırılsınlar"

Lakin başlayıram Leyla Yunusla onun ərciyəzi Arif Yunusdan. Bu həmin Yunuslardır ki, hətta qanlarında erməni genlərinin mövcudluğu sübuta yetirilib. Bu həmin Yunuslardır ki, bəlli cinayət əməllərinə görə həbs olunarkən onların Hollandiya yaşayan ermənipərəst qızları Dinara Yunus "Odnoklassniki" sosial şəbəkəsində Dağlıq Qarabağ cəbhəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid düşən əsgərlərimizin ruhlarını təhqir edərək, "Azərbaycan əsgərləri cəbhədə ölsünlər, qırılsınlar" şərhini yazmışdı. Yenə də təəccüblü deyil, lakin hiddətləndiricidir. Kimsə unutmayıb ki, "Sülh və Demokratiya İnstitu"nun ("SDİ") rəhbəri kimi "xalq diplomatiyası" pərdəsi altında ermənilərin sifarişlərini canla-başla icra edənlər bu satqınlar ailəsinin üzvləridirlər.

### Leyla Yunus Xocalı şəhidlərinə açıq şəkildə sayğısızlıq göstərərək, siyasi həyasızlıq nümayiş etdirdi, üstəlik güldü və əl çaldı, Emin Hüseynov da onu dəstəklədi...

L.Yunus AXC-Müsavat hakimiyyəti dövründə Müdafiə Nazirliyində yüksək postlardan birini tutarkən onun əsas vəzifələrindən biri də məhz erməni kəşfiyyatına gizli məlumatları ötürmək idi. Bunu ki, siyasətlə maraqlanan bir çox insanlar bilir! Ancaq bu da son deyil. 2018-ci ilin fevralında ATƏT Parlament Assambleyasının 17-ci qış sessiyasında iştirak edən azərbaycanlı deputatlar daim erməni lobbisinə xidmət göstərən və bu gün də öz çirkin və xəyanətkar əməllərini davam etdirən "SDİ" direktoru L.Yunusdan Xocalı qurbanları barədə nə üçün danışmadığını soruşublar. Lakin o, deputatların suallarına doğrudürüst cavab verməsi yerinə, Xocalı şəhidlərinə açıq şəkildə sayğısızlıq göstərərək, siyasi həyasızlıq nümayiş etdirdi, üstəlik güldü və əl çaldı. Niyə əcəba? Məqsədi nə idi? Onunla eyni masada oturan daha bir xain Emin Hüseynov da həmin sayğısızlığı nümaiyş etdirməklə, özünü ermənilərə sevdirməkdən ötrü L.Yunusun çəpikçalmasına dəstək oldu. Əgər nəzərə alarsaq ki, vaxtilə Bakıda "Eurovision" mahnı müsabiqəsi ərəfələrində erməni təşkilatlarının maliyyə dəstəyi ilə fəaliyyət göstərən bəzi xarici media qurumları üçün "Demokratiya üçün oxu" şüarı altında konfrans düzənləyib, həmin konfransda Azərbaycana qarşı ləkə atmağa çalışan L.Yunus yalnız söyüş söyəndə Azərbaycan dilində danışdığını etiraf edibsə, bu zaman onun Xocalı soyqırımına və orada erməni vəhşiliyinin nəticəsi olaraq həlak olan insanların ruhlarına qarşı göstərdiyi hörmətsizliyindən təəccüblənməyə dəyməz. Onu da xatırladaq ki, məhz həmin konfransda da E.Hüseynov və digər sözdə müxalif mövqeli şəxslər də L.Yunusun yanında əyləşərək, həmin ifadələrini alqışlamışdı. Bu isə sübut edir ki, onların fəaliyyət mənbələri bilavasitə erməni lobbisidir və açıq-aşkar şəkildə bu lobbinin himayəsi, maddi dəstəyi altında ucuz həyatlarını yaşayırlar.

### Ramis Yunusun Ermənistanın "Civilnet" kanalındakı erməniçilik faktı

Götürək digər Yunusu, anası erməni olduğu sübuta yetirilən Arifi. Onun Ermənistanın "Civilnet" kanalına Tovuz hadisələriylə bağlı verdiyi müsahibə, heç şübhəsiz, ölkəmiz adına növbəti təxribat vulkanının püskürməsinə rəvac verən addımdır. Bu "adam" açıq-aşkar şəkildə guya azərbaycanlıların "məyus duruma" düşməsini önə çəkməklə kifayətlənmir, üstəlik şəhidlərimizin ruhunu narahat etməkdən belə ar etmir. Məsələn, ən ucuz, ən sərsəm "versiyaya" əl atıb, şəhid generalımız ətrafında ermənilərin əlinə oynayan dezo ilə çıxış edir. Guya ki, xalq generalımızın birinci fəxri xiyabanda dəfn olunmasını istəyirmiş və bu istək olmadığına görə, narazılıq daha da artıb və s.(???!!!-R.R.) Bundan artıq idbarlıq, bundan izafi xəyanət ola bilərmi? İnsan nə qədər vicdansızlığa, rəzilliyə mübtəla olmalıdır ki, bu cür vəhşilərlə özünə ermənilər qarşısında xal toplasın!

### Sevinc Osmanqızı azərbaycanlıları təhqir etdikdən sonra Sumqayıt hadisələrini də millətimizin üzərinə atır

Bu arada, ən çox danışılan mövzulardan biri də Sevinc Osmanqızının erməniрərəstliyindən doğan məlum ermənişvənçiliyidir. Onun Tovuz hadisələrindən sonra xarici ölkələrdə yaşayan, təhsil alan, işləyən vətənpərvər soydaşlarımızın Ermənistanın işğalçılıq siyasətinə qarşı etirazlarına qara yaxması, təhqir etməsinin ardınca Sumqayıt hadisələrində də günahlandırması artıq bütün hədləri, əndazələri aşıb! Bu xüsusda ABŞ-da yaşayan tanınmış ictimai siyasi fəal Zaur Bayramlı Sevinc Osmanqızının yeni videosu ilə bağlı facebook-da geniş statusla çıxış edib. "Görünür Sevinc Osmanqızının bir neçə gün öncə yayılan və montaj olduğunu, fikirlərinin kontekstindən çıxarıldığını iddia etdiyi məlum videoda söylədikləri ilə ürəyi soyumayıb və ondan 2 gün sonrakı proqramında daha da irəliyə gedərək düşmənləri sevindirəcək, millətimizi üzəcək açıqlamalarda bulunmağa davam edib", yazılan statusda bildirilir ki, "Sumqayıt hadisələri" kimi tarixə keçən olayların arxasında Sovet kəşfiyyatının da durduğu erməni provokatorlar tərəfindən törədildiyi hər kəsə məlum olduğu halda, Osmanqızı bu qanlı olayı çox rahatlıqla Azərbaycan xalqının ayağına yaza bilir. Sizcə, bu XƏYANƏT deyilmi??? SİTAT: "Azərbaycanın müstəqillik mübarizəsinin ən önəmli dönüş nöqtəsi kimi qəbul edilən 20 yanvar olayının, o vaxtkı Sovet imperiyasının Azərbaycan xalqının müstəqillik mücadiləsini beşikdə boğmaq üçün və eyni zamanda Qarabağın ermənilərə verilməsinin alt yapısını hazırlamaq, millətimizin gözünü qorxutmaq üçün tərkibində xeyli sayda erməni əsgər və zabitlərinin də olduğu qanlı və işğalçı Sovet ordusu tərəfindən bir neçə ay öncədən hazırlanan plana əsasən törədildiyini bildiyi halda bunu 1 həftə öncəyə bağlamağın adı nədir? Guya 13 yanvar tarixində Azərbaycanlıların Bakıda ermənilərin evlərinə soxularaq onları qətl etdiyini iddia etmək və buna görə də 20 yanvarın, yəni Azərbaycan xalqının qətliama məruz qalmasının ZƏRURİ olduğunu söyləmək XƏYANƏT deyilmi???

Heç bir işə yaramayan ATƏT-in Minsk qrupunun erməniрərəst həmsədrlərini rəferans göstərərək onların ağzı ilə "atəşkəsi daha çox pozan tərəfin Azərbaycan olduğu"nu utanmadan söyləyə bilmək XƏYANƏT deyilmi?... Ömrünün xeyli hissəsini Azərbaycanda yaşamasına baxmayaraq hər hansı bir haqsızlığa qarşı istər sözlü, istərsə də yazılı bir cümləsi belə bulunmayan (!) bu "uzaqgörən" jurnalistin "müxalifətçiliyinin" səmimiyyətinə doğrudanmı inanırsınız, ey sözün əsl mənasında səmimi və idealist müxalifətçi dostlarım? Yoxsa bu xanımın Azərbaycanda yaşadığı zamanlarda hər şey güllük-gülüstanlıq idi, haqsızlıq, qanunsuzluq, rüşvət, özbaşınalıq və sairə yoxdu???"

Daha sonra qeyd olunur ki, proqramın 2 qonağından biri olan Ramiz Yunus Los-Anceles və Brüsseldəki olayların aylar öncə Azərbaycan dövləti - Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən planlanıldığını iddia edərkən nə proqramın müəllifi ona bir irad bildirdi, nə də ki, Azərbaycanı idarə etməyə iddialı olan digər qonaq - "Milli Şura"nın sədri professor Cəmil Həsənli: "Hətta dəstək belə oldular. Demək belə çıxır ki, 12 iyulda Tovuzda ermənilər atəşkəsi pozaraq bizim sərhədimizə hərbi təcavüz etməyiblər, biz özümüz-özümüzə hücum etmişik və yaxud biz ermənilərə hücum etmişik. Ramiz Yunusun iddiasına görə sən demə Los-Anceles və Brüsselin erməniləri də Azərbaycan dövlətinin təlimatı ilə oturub-durublarmış və elə hər iki şəhərdə də Azərbaycanın təlimatı ilə bizim söydaşlarımıza vəhşicəsinə hücum edərək yaralayıblar.

### Bütün bunlar aylar öncədən "Azərbaycan tərəfindən planlaşdırılıb" axı...

Ramiz Yunusun anasının erməni millətinə mənsub olması əlbəttə ki, R.Yunusun suçu deyil və o, buna görə məsuliyyət daşımır. Amma proqramda səsləndirdiyi və ermənilər üçün göydəndüşmə olan bu axmaq iddialar üçün isə ən azından mənəvi məsuliyyət daşıyır. Son olaraq, edilən bu qədər sinsi xəyanətləri görərək dilə gətirən minlərlə, onminlərlə vətənpərvər soydaşımızı troll sürüsü adlandırmaq, onlara "vətənşüvən" demək, elə o "vətənşüvən" söz birləşməsində yerindən çıxardaraq yerinə "vətən"i qoyduqları sözün elə ən böyüyü olmaq demək deyilmi???"

### Arif Məmmədov - Ermənistan aşiqi və Azərbaycan düşməni!

Tez-tez Qənimət Zahidin "Azərbaycan saatı"na və ya Sevinc Osmanqızının canlı yayımlarına çıxaraq ağzına və ağlına gələn əfsanələri zorla ictimaiyyətə sırımağa çalışan sabiq diplomat Arif Məmmədovun da ermənilərlə iş birliyi dəfələrlə sübuta yetirilib. Halbuki, zamanında Azərbaycan hakimiyyəti ona müxtəlif nüfuzlu beynəlxalq təşkilatlarda - AŞPA-da, ATƏT-də, İƏT-də dövləti təmsil etmək imkanı yaratmışdı və o, uzun illər bu iqtidarın çörəyini yeyib, suyunu içərək, xarici ölkələrdə diplomat statusu altında yaşamını təmin edirdi. Amma sonra nə oldu? Arif Məmmədov anidən Qərbdə fəaliyyət göstərən və birbaşa erməni lobbisinin maddi dəstəyi ilə fəaliyyət göstərən anti-Azərbaycan xarakterli siyasi çevrələrin əlaltısına çevrilərək dönüb oldu Azərbaycan dövlətinin və xalqının düşməni. Çünki o, dövlətinin ona verdiyi çörəyi ayaq altına ataraq, düşmən çörəyini daha üstün tutdu. Yumşaq ifadə etsək, demə A.Məmmədovun çörəyi elə dizinin üstündəymiş, hər ayağa qalxanda düşürmüş ayaqlar altına. O, bunu Azərbaycan xalqını təhqir edərkən, vəhşi adlandırarkən növbəti dəfə sübuta yetirdi!

Ancaq onun Vətənə, dövlətə nifrəti uzun illər öncəyə təsadüf edir. Hələ diplomatik korpusda işləyərkən həmin bu A.Məmmədov Vətənində, xalqı arasında yaşamağı özünə qəbahət bilmişdi. Daha doğrusu, bir neçə günlük Bakıya, Azərbaycana gələrkən bu cür fikir bildirmişdi. SİTAT: "Təxminən 20 ildir Avropada normal adamlar sırasındayam... 3 gün Bakıda oldum və artıq qocaldım...". Gördüyümüz kimi, bu nacinslik nümunəsi hələ səfir işlədiyi vaxtlardan bu millətə, bu xalqa aşkar qənimə, düşmənə çevrilmişdi - avropalıları normal, azərbaycanlıları isə anormal hesab edirmiş satqınlıq simvolu. Məgər bundan da artıq sübuta ehtiyac varmı??? Yoxdur əlbəttə ki. Ona görə yoxdur ki, bu adamın açıq-aşkar ermənilərə dəstək göstərməsi özü-özlüyündə hər şeyi bütün çılpaqlığı ilə ortaya qoymaqdadır. Sonda isə, dəyərli oxucularımıza bu ünsürlərin erməniрərəstliklərini bir daha sübuta yetirən faktlarını linklər vasitəsi ilə təqdim edirik. Qoy millət bir daha gözünü açıb-görsün ki, onlar və onlara dəstək göstərən ünsürlər bu xalqın, bu dövlətin nə qədər qatı düşməni və ermənilərdən artıq erməniləridirlər. Onlar Ermənistanın siyasi orkestrinin bekvokallarıdırlar, yəni züytütanları. Amma gec, ya da tez bilməlidirlər ki, cavab verəcəklər, hər şeyə görə!

***Rövşən RƏSULOV***

***P.S. Biz hələ Məhəmməd Mirzəlinin, Orduxanın, Vidadi İsgəndərlinin, Tural Sadıqlının və başqalarının Azərbaycanlıları təhqir etmələrini, erməni aşnalarına xoş gəlməkdən ötrü minbir oyundan çıxmalarınıda buraya əlavə etsəydik... Hər halda, şəkillər, faktlar artıq özü-özlüyündə hər şeyi sübuta yetirir.***

# Erməni xalqının qorxulu kabusu

## Paşinyan çıxış yolu axtarışında

***"Əgər parlament fraksiyası məni seçməsə, heç kimi seçməyəcək. Baş nazirin seçiləcəyi gün bütün erməni xalqı meydanda olacaq. Qoy, xalqın iradəsini yerinə yetirməməyə çalışsınlar", Bu sözləri 2018-ci ildə Ermənistanın baş naziri Nikol Paşinyan deyib. Əgər Serj Sarkisyanın 10 illik prezidentliyi Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olundusa, bu kabusu indi də Nikol Paşinyan yaradır. Ermənistanla bağlı proqnozlar özünü tam doğrultdu. Bu belə də olmalı idi. Çünki istər Paşinyan, istərsə də Sarkisyan eyni düşüncəyə malik olan Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olunub, olunacaq.***

Və növbəti kabus isə iyulun 12-də Paşinyanın Tovuzda qəflətən Azərbaycana qarşı təxribatı idi. Hakimiyyətə gəlməklə Paşinyan sərsəm bəyanatları ilə elə ilk gündən Rusiya ilə Ermənistan arasında gərginlik yaratdı. Siyasətdən bixəbər olan küçə "demokrat" Paşinyan elə zənn etdi ki, təxribat törətməklə hər şeyə nail ola biləcək. Alınmayanda başladı Rusiyanın ünvanına sərsəm bəyanatlar verməyə. Nəticə nə oldu. Elə iyulun 12-də qəflətən Azərbaycan sərhədlərini pozaraq Tovuz istiqamətində təxribat törətmək istədi. O, Tovuzda gərginlik yaratmaqla qərbə mesaj verdi: "Rusiya məni müdafiə etmədi, mən Rusiyanın adamı deyiləm".

### Bax, budur, Paşinyanın "siyasəti".

Ekspertlərin sözlərinə görə, əslində Tovuzda baş verən son təxribatda ən azı 3 maddəyə görə Rusiya Ermənistanı müdafiə etməli idi. Birincisi, Rusiya ilə Ermənistan arasında dövlətlərarası müqavilə var. Ermənistana hücum zamanı Rusiya kömək etməlidir. İkincisi, Rusiyada Ermənistanın birgə qoşun birləşmələri var. Bu qoşun birləşmələrinin də əsas məqsədi hansısa hücum zamanı Ermənistana kömək etməkdir. Üçüncüsü, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) 5-ci maddəsinə görə, bir KTMT üzvünə hücum bütün KTMT üzvlərinə hücum deməkdir. Paşinyan qərbə mesaj verməklə əvəzində qərbdən pul gözləyir.

### İşğalçı dövlətin belə bir addım atması ilk növbədə, mövcud diktator rejiminin ölkə daxili problemlərlə üzləşməsini təsdiqləyir

Milli Məclisin deputatı, YAP Beynəlxalq əlaqələr komissiyasının katibi Elman Nəsirov sözügedən məsələ ilə bağlı bildirir ki, Ermənistan tərəfinin koronavirus pandemiyasının yaratdığı çıxılmaz iqtisadi böhran vəziyyətində "kiçik müharibə"yə başlamaqla narazı kütlənin diqqətini ağır iqtisadi-sosial problemlərdən yayındırması istisna olunmur: ""Böyük depressiya"nın təcrübəsi göstərir ki, ölkədə iqtisadiyyatın çökməsi millətçilik dalğasının yüksəlməsinə və "xarici düşmən" axtarışlarının intensivləşməsinə, əgər o varsa bu istiqamətdə avantürist davranışlararın artmasına rəvac verir. Narazı kütlə belə xüsusi hallarda hərbi avantüralara loyal mövqedə dayana bilər. Nikol Paşinyanın yeni şəraitdə hakimiyyəti üçün olduqca ciddi daxili təhdidlərin formalaşacağı reallıqda məhz belə davranacağı istisna olunmur. Nikol Paşinyan çox gözəl dərk edir ki, iri miqyaslı hərbi əməliyyatlar başlayacağı təqdirdə ölkəsinin güclü Azərbaycan ordusu qarşısında biabırçı məğlubiyyəti və deməli, özünün də hakimiyyətdən salınması sırf zaman məsələsidir. Bu vəziyyətə Ermənistanın məqsədi "kiçik müharibə" effekti yaradıb, daxili auditoriyanın hakimiyyətə olan qəzəbini soyutmaq və sonra isə beynəlxalq aləmdə hay-həşir qoparıb, Azərbaycan ordusunun hücuma keçdiyi, Ermənistan dövləti və onun "məzlum" xalqı üçün yenidən təhdidlərin yarandığı ilə bağlı dezinformasiya yaymaqdan ibarətdir. Təəssüflər olsun ki, bu, belə də oldu".

E.Nəsirov qeyd edib ki, iyulun 12-də Ermənistan ordusu Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində artilleriya qurğularından istifadə etməklə qəfil hücuma keçərək hərbi təxribat törətdi: "Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi hərbi avantüraya görə bütün məsuliyyət onun hərbi-



siyasi rəhbərliyinin üzərinə düşür. İşğalçı dövlətin belə bir addım atması ilk növbədə, mövcud diktator rejiminin ölkə daxili problemlərlə üzləşməsi ilə izah olunur. Heç kəsə sirr deyildir ki, koronavirus pandemiyası Ermənistanda onsuz da ağır olan sosial-iqtisadi vəziyyəti böhran həddinə çatdırıb. Ölkədə yeni inqilab mehi əsməkdədir. Bu reallıqda Ermənistanın hərbi-siyasi rəhbərliyi ənənəvi olaraq dəfələrlə sınaqdan çıxardıqları taktikanı yenidən işə salmaq məcburiyyətində qalıblar".

Millət vəkilinin sözlərinə görə, daxili risklər süni yaradılmış xarici risklər hesabına kompensasiya etmək, yəni - hərbi avantüraya əl atmaqla Ermənistan rəhbərliyi hakimiyyətinin ömrünü uzatmaq niyyətindədir. Sadə ermənilər diktatura rejiminin ömrünü uzatmaq naminə övladlarını müharibədə qurban verməki istəmirlər və bununla bağlı etiraz edənlərin sayı gündən-günə artmaqdadır: "Ermənistan siyasi rəhbərliyinin hərbi təxribatçı addımlarını şərtləndirən digər mühüm amilin isə Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsi ilə əlaqədardır. Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında, Aşqabadda MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında, Münxen Təhlükəsizlik Konfransında Ermənistanın işğalçılıq siyasətini və faşist simasını ifşa etməsi, dünyanın aparıcı beynəlxalq qurumlarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qərarlar qəbul etməsi xarici ermənipərəst dairələri və Ermənistan hakimiyyətini ciddi problemlər qarşısında qoyub. Xüsusilə də, Azərbaycan Prezidentinin COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsi mənafeyinə xidmət edən BMT Baş Assambleyasının Xüsusi sessiyasının çağırılması təşəbbüsünün 130-dan çox dövlət tərəfindən dəstəklənməsi Ermənistanı qıcıqlandırıb. Ermənistan Azərbaycanın təşəbbüsünə etiraz etməklə özünü bütün dünyanın gözündə rüsvay etdi".

E.Nəsirov hərbi təxribatın məhz Azərbaycan-Ermənistan dövlət sərhədində baş verməsinin təsadüfi olmadığını də bildirib. Qeyd edib ki, Ermənistanın münaqişənin əsl mahiyyətini ört-basdır edir və bu da onun çirkin niyyətindən irəli gəlir. İşğalçı ölkə üzvü olduğu hərbi-siyasi təşkilatın "çətir"i altında gizlənərək hərbi avantürasının kollektiv müdafiə mexanizmləri ilə dəstəklənməsinə nail olmaq kimi riyakar məqsədindən qaynaqlanır. İşğalçı dövlətin bu istiqamətdə planları da tam iflasa uğradı: "Ermənistanın hərbi təxribatı nəticəsində bir neçə hərbi qulluqçumuz şəhid olub. Vətən uğrunda canından keçən oğullarımızın qisası ordumuz tərəfindən alındı. İnanırıq ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında yüksək hərbi-vətənpərvərlik ruhu olan güclü Azərbaycan Ordusu düşmənin təxribatına bundan sonra da layiqli cavab verəcək. Birliyimiz, həmrəyliyimiz sayəsində Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, işğaldan azad olunan torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaqdır".

### Kimdir? Nədir? Ermənistan

Bu danılmaz faktordur ki, Ermənistan zaman-zaman sülh danışıqlarından yayınmaq üçün cəbhədə təxribatlar törədib. Son hadisələr isə birbaşa Ermənistanın daxilindəki ziddiyyətlərlə bağlıdır. Bu gün bir tərəfdən Ermənistandan daxili siyasi çəkişmələr pik həddə çatıb. Digər tərəfdən Paşinyan hökuməti koronavirusun sürətlə yayılmasının qarşısını heç cür ala bilmədiyinə görə daxili təzyiq və qınaqla üzə-üzə qalıb. Buna görə Ermənistan iqtidarı cəbhədə təxribatlar törədərək diqqəti daxili problem və ziddiyyətlərdən yayındırmaq yolu tutub. Bu işğalçı dövlətin köhnə oyunlarından biridir. Əsas olan odur ki, hər belə təxribat Ermənistanın işğalçılıq siyasətinin ifşasını sürətləndirir, Azərbaycanın öz torpaqlarını azad etmək üçün siyasi və hüquqi baxımdan mövqelərini möhkəmləndirir. Tarixi başdan-başa saxtakarlıqlardan, xalqımıza qarşı soyqırımlardan, quldurluqdan ibarət olan cinayətkarlar, oğrular, saxta demokrat cildinə girmiş diktatorlar ölkəsi hər addımı ilə öz sonunu yaxınlaşdırır.

Bu günlərdə mətbuata açıqlamasında Prezident İlham Əliyev sülh danışıqlarının gedişatı ilə bağlı fikirlərini bildirirərək, dövlətimizin mövqeyini bəyan etdi. Görünən odur ki, Azərbaycan danışıqları imitasiya üçün aparmaq niyyətində deyil. Dövlətimizin başçısı müsahibəsinin sonunda "Heç kimin Aprel döyüşləri yadından çıxmasın!" fikrini də təsadüfən söyləmədi. Bəli, Azərbaycan nəyə qadir olduğunu artıq sübut edib. Ermənistanın siyasi-hərbi rəhbərliyi də ölkəsinin zəifliyini bilir və buna görə də indiki təxribatı məqsədyönlü şəkildə dövlət sərhədində törədib. Amma beynəlxalq situasiya elə bir mərhələyə doğru gedir ki, üzvü olduğu təşkilatlar belə Ermənistanı xilas edə bilməyəcək və işğalçı siyasətin son nöqtələrini Ordumuzun atəşləri qoyacaq.

### Sergey Markov: "KTMT-də daha çox Prezident İlham Əliyevin sözünə güvənirlər"

"Ermənistan-Azərbaycan sərhədində gərginliyin davam etməsi çox həyəcan vericidir. Bu, onu göstərir ki, Ermənistan və Azərbaycan əvvəlki kimi müharibə vəziyyətindədir. Hər iki tərəf itki verib. Azərbaycan tərəfindən isə mülki insanlar arasında itki və xəsarət alanlar var. Bu məqam beynəlxalq təşkilatlardan münaqişənin daha da dərinləşməməsi üçün müdaxilə tələb edir". Bunu Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov bildirib.

"Bu cür esklasiyanın baş verməsinin təbiəti aydın deyil. Üstəlik də pandemiya dövründə bunun baş verməsi çox qəribədir. Vəziyyətin gərginləşməsi Nikol Paşinyana daxili siyasi səbəblərə görə lazımdır. Ona görə ki, o, özünü vətənpərvər kimi qələmə verərək rəqibi olduğu Respublikaçılar Partiyasına yumruq göstərmək istəyir. Bununla belə, onun əsl məqsədi KTMT-nin dəstəyini alaraq bu qurumu Azərbaycanla münaqişəyə cəlb etməkdir", - deyə S. Markov vurğulayıb.

Rusiyalı siyasi ekspert KTMT-yə üzv dövlətlərin Paşinyana güvənmədiyini də söyləyib: "Bu təşkilatda Ermənistandan daha çox Azərbaycan prezidenti İlham Əliyevin sözünə güvənirlər. Baxmayaraq ki, Azərbaycan KTMT-nin üzvü deyil. Üstəlik, KTMT-də Paşinyanın bu qurumun Baş katibinin həbs olunması əmrini verməsini hələ bağışlamayıblar".

Göründüyü kimi, bütün bu baş verənlər onu göstərir ki, baş nazir Nikol Paşinyan və komandasının diqqəti daxili problemlərdən yayındırmaq cəhdləridir. Lakin bu da istisna fakto deyil. Amma Ermənistandakı vəziyyət o qədər acınacaqlıdır ki, diqqəti daxili problemlərdən yayındırmaq üçün heç bir təxribat və avantüra Ermənistan hakimiyyətinin köməyinə gəlməyəcək. Ekspertlərin sözlərinə görə, ölkədəki iqtisadi böhran və sosial problemlər ən yüksək həddə çatıb. Bunun əsas səbəblərindən biri, COVID-19 virusuna yoluxma halları ilə bağlı aparılan mübarizənin effektivsizliyi və sərhədlərin qapalı olmasıdır. Daxili resurslarla əhalinin minimum ehtiyaclarını ödəyə bilməyən Paşinyan hakimiyyəti onları aclıq və səfalətlə baş-başa buraxıb.

Yaranmış vəziyyət Ermənistandakı daxili kataklizmlərin daha da dərinləşəcəyi ehtimalını yaradır. Ermənistanın, Paşinyan hakimiyyətinin isə COVID-19 səbəbindən itirilən vəsaitləri kompensasiya etmək üçün heç bir iqtisadi resursu yoxdur. Bu dəfə klassik dilənçilik ənənəsi də ermənilərin köməyinə çatmır. Və düşmənin bütün cəhdləri boşa çıxır. Eyni zamanda, Azərbaycanın Ermənistan istisna olmaqla bütün KTMT ölkələri ilə dostluq münasibətləri var. Təşkilat üzvləri də Ermənistanın məkrli niyyətini yaxşı başa düşürlər. Ona görə də təşkilat İrəvan hökumətinin çağırışlarına müsbət cavab vermir və bundan sonra da verməyəcəyi bildirilir. Beləliklə, nə həqiqəti, nə də tarixi faktları saxtalaşdırmaq olmaz. Çünki həqiqət gec-tez üzə çıxır, tarix də tarixində qalır. Nikol Paşinyan hələ hakimiyyətə gəlməmişdən İrəvan küçələrində təşkil etdiyi mitinqlərdə səsləndirdiyi daşnak lozunqları ilə faşistlərdən fərqlənmədiyini ortaya qoymuşdu. Hakimiyyətə gəldikdən sonra da öz sələflərinin siyasətini davam etdirməklə, faşizm ideyalarına sadiqliyini sübut etmiş oldu. Göründüyü kimi, müasir siyasətdə geniş tətbiq olunan ikili standartlar bu məsələdə də tətbiq olunur. Faşist elə faşistdir və paşinyanlar kimi. Və faşist xislətli ilə ölkə iqtisadiyyatını böhrana sürükləyən Paşinyan heç də Serj Sarkisyan iqtidarından geri qalmır. "Aykakan Jamanak" qəzeti yazır ki, Sarkisyan hakimiyyəti dövründə olduğu kimi, Paşinyan hökumətinin yalan vədlərinin boş və mənasız olduğunu artıq anlayır və sadəcə xalqı aldatdığını aydın görürlər.

Bir sözlə acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan necə deyərlər Ermənistanı iflasdan iflasa sürükləməklə yanaşı, nöbəti faşist xislətini nümayiş etdirdi. Bəs, Ermənistanın faşist xislətli rəhbərliyi Paşinyanın düşdüyü labirintdən çıxış yolu varmı? Bəli, var. Bu yolu təxribat yolu yox, Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. Bəli, bu, Ermənistanın yeganə nicat yoludur. Paşinyan bunun əksini edərsə, Sarkisyanın yolu ilə getmiş olacaq, sözün bütün mənalarında.

Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bu faktın gerçəkliyi göz önündədir.

**A.SƏMƏDOVA**

# El qınağı yaman olur

## Gec-tez Sevinc Osmanqızı kimilər layiq olduqları cəzanı alacaqlar



***Bu gün özünü "müxalifətçi" adlandıranlar yorulmadan eyni yalanı danışmaqdan, Azərbaycana qənim kəsilməkdən yorulmurlar. Umacaqları nədir? Hakimiyyət?! Bu bədbəxtlər niyə bu reallığı anlamırlar ki, bu gün ölkə etibarlı əllərdədir, xalqının arxasında dayanan güclü LİDERİ var. Bu yerdə 1995-ci il martın 19-da Ulu Öndər Heydər Əliyev müxalifətlə bağlı dediyi fikirləri xatırlatmaq istərdim. Ulu Öndər deyirdi: "...Özlərini guya müxalifət hesab edərək cinayətlə məşğul olanlar müxalifət deyillər. Müxalifət siyasi müxalifət olmalıdır, amma onlar cinayətkarlardır. Əgər bu gün soruşsaq ki, kimdir tökülən qanların günahkarları? Tərəddüt etmədən deyə bilərik ki, bəli, onlardır".***

Bəli, bu gün Azərbaycanın dağıdıcı müxalifəti qərəzli dairələrin əlində alətə çevrilib. Buna baxmayaraq qətiyyətlə demək olar ki, antimilli ünsürlərin və onların xarici havadarlarının siyasi hoqqabazlıqları uğursuzluğa məhkumdur. Azərbaycanın uğurlarını həzm edə bilməyən xarici və daxili bədxahlar unutmasınlar ki, heç bir qüvvə ölkəmizi öz yolundan döndərə bilməz. Ölkəmizdə mövcud xalq-hakimiyyət birliyi sarsılmazdır. Xalq Prezident İlham Əliyevi birmənalı olaraq dəstəkləyir. Prezidentimiz də hər hansı beynəlxalq siyasi dairələrin diktəsi ilə deyil, məhz Azərbaycan xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət həyata keçirir. Bu, xalq-hakimiyyət birliyini güclü edən həlledici amildir. Eyni zamanda, bu, monolitliyin xarici bədxahlarımızın və "sapı özümüzdən olan baltalar"ın hədəfinə çevrilməsini şərtləndirən mühüm səbəbdir. Qoy antimilli ünsürlər və onların xarici havadarları unutmasınlar ki, onların siyasi hoqqabazlıqları həmişə olduğu kimi, bu dəfə də uğursuzluğa məhkumdur.

Xaricdəki "söyüş müxalifəti"nin fəallarından olan Vidadi İsgəndərli, Sevinc Osmanqızı, keçmiş səfir Arif Məmmədov, Orduxan Temurxan və digərləri yenə də əsl sifətlərini göstərməkdədirlər. ABŞ-da guya mühacir həyatı yaşayan S.Osmanqızının bu günlərdə Ermənistanın işğalçılıq siyasətinə etiraz əlaməti olaraq azərbaycanlıların Ermənistan səfirliyi qarşısında və digər yerlərdə keçirdikləri aksiyaları aşağılaması onun ermənixislətli unsur olduğunu bir daha təsdiqlədi. Onun azərbaycanlı, özü də erməni terrorunun qurbanı olan məhrum Osman Mirzəyevin qızı olmasına şübhə etdim. Bu qədər xalqına, dövlətinə, hətta atasına dəyərsiz yanaşmaq olar? Atanız Osman Mirzəyevi kim qətlə yetirib? Bir fikirləşin. Hətta Qarabağ məsələsində belə hakimiyyəti günahlandırmaq bu Allahsızlıqdır. İnsanlar öz etirazlarını bu və digər formada bildirirsə, Avropada onların bu etirazına qarşı ermənilər güc və zor tətbiq edirsə, burada günahı Azərbaycan hakimiyyətində axtarmaq lazımdır, ya ermənilərin vəhşiliyində? Ermənilərin dünyanın bir sıra ölkələrində həmvətənlərimizə qarşı hücumlar təşkil etdiyi bir vaxtda adını "azərbaycanlı jurnalist" qoyan S.Osmanqızının düşməni müdafiə edən fikirlər səsləndirməsi onun ermənidən betər erməni olduğunu göstərir. Əli on minlərlə azərbaycanlının qanına batmış erməni terrorçularına haqq qazandırması ilə Sevinc Osmanqızı sözün həqiqi mənasında düşmən dəyirmanına su tökdü.

Azərbaycana nifrət edən bu şəxslərin əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır". Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və satqından başqa biri deyillər. Bu iyrənc söyüşləriniz heç zaman unudulmayacaq və ömrünüz boyu bir kabus kimi sizi izləyəcək. Onda övladlarınıza nə cavab verəcəksiniz? Əslində belə ünsürlərə heç mənfi qiymət də vermək olmur. Çünki bunların dəyəri yoxdur. Bu iyrənclik hüquqdan da, insanlıqdan da, mədəniyyətdən də kənardır. "Bu qarşıdurmanı təşkil edən Azərbaycan tərəfidir", - deyən S.Osmanqızı bilməlidir ki, Vətənə xəyanət, heç bir halda, cəmiyyətin diqqətindən yayınmaz. Ona görə də, Vəhşi, terrorçunu müdafiə edən Vətən amilindən söz açmağa haqqı yoxdur. Gec-tez layiq olduğunuz cəzanı alacaqsınız. Bu qaçılmazdır.

***MEHDİ BALABƏYOV,***
***YAP Şabran rayon təşkilatının sədri***

# "Birgə hərbi təlimlərdən ermənilərin təşvişə düşməsi əsaslıdır"




***"Psixoloji baxımdan ermənilər özlərinə təskinlik verməyə çalışırlar ki, guya onlar Azərbaycan Ordusu ilə döyüşə bilərlər. Yəni, ermənilər özləri özlərinə belə təlqin edirlər. Amma indi fikirləşirlər ki, qarşılarında özlərindən 3-4 dəfə böyük bir dövlətin ordusu ilə yanaşı, özlərindən 50 dəfə, 100 dəfə güclü bir dövlətin ordusu da var." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***

Mərkəzin direktoru qeyd edib ki, Azərbaycan-Türkiyə birgə hərbi təlimlərindən ermənilərin təşvişə düşməsi əsaslıdır. "Ermənilərin təşvişinin, eyni zamanda, tamam ayrı səbəbi də var. Onlar Rusiyanı hal-hazırda Azərbaycanın üstünə qızışdırmaq istəyirlər. Bilirsiz ki, son illərdə Cənab Prezidentin apardığı siyasət Rusiya ilə Azərbaycanı xeyli yaxınlaşdırıb. Ən azı təhlükəsizlik anlayışına münasibət bunun dəqiq sübutudur. Rusiya Ermənistanla təhlükəsizlik məsələlərini müzakirə edəndə yalnız Cənubi Qafqaz regionunu müzakirə edir. Amma Rusiya Azərbaycanla təhlükəsizlik məsələlərini müzakirə edəndə region xeyli genişlənir. Cənubi Qafqaz, Xəzər dənizi, Yaxın Şərq və sair. Yaxın Şərqdə də bilirik ki, çoxşaxəli məsələlər var. Yəni, ermənilər özləri də belə düşünürlər ki, Rusiya ilə Azərbaycanın xeyli çox yaxınlaşıb. İndi də bütün gücləri ilə çalışırlar ki, Rusiya ilə Azərbaycan arasına girsinlər. Ermənilər çox gözəl bilirlər ki, Türkiyənin hal-hazırda belə marağı təkcə Qarbağ problemindən ötrü deyil, həm də Türkiyənin özünün dövlət maraqlarından ötrüdür.

Böyük Türkiyə yaradır Ərdoğan və bilirik ki, bu gün Suriyada, İraqda, Liviyada, Livanda, Aralıq dənizində Rusiya ilə belə deyək, xeyli toqquşan maraqları var. İndi Ərdoğan belə hesab edir ki, indi Qafqazdan Rusiyanı sıxışdırmaq lazımdır. Yəni, ermənilər də bax bunu hesablayırlar ki, Rusiya-Türkiyə qarşıdurması, məhz Qafqazda baş versin, Qafqazda Rusiya ilə Türkiyə vuruşsun, hansı ki, bu, ermənilərin köhnə planıdır. Qafqaz uğrunda Rusiya-Türkiyə müharibəsinin də günahkarı Azərbaycan olsun, yeri gəlsə, Rusiya-Türkiyə vuruşmaları Azərbaycanın ərazisinə keçsin. Bax ermənilərin hal-hazırda çalışdıqları bundan ötrüdür. 2016-cı ilin aprel döyüşlərində Azərbaycan təkbaşına döyüşdü və Azərbaycan təkbaşına da daha güclüdür.

Bizim xarici işlər nazirinin də bəyanatı var və bu, əvvəlcədən planlaşdırılmış hərbi təlimlərdir və bu, təhlükəsizliyin gücləndirilməsinə xidmət edir. Dağlıq Qarabağ münaqişəsinin həll olunmamış qalması regional təhlükəsizliyi azaldan məsələdir. Amma regional təhlükəsizlik üçün təhdid təkcə Qarabağ məsələsi deyil. Regiona İŞİD terrorçuları da girə bilər, regionda müxtəlif problemlər yarana bilər. Ona görə də Azərbaycan və Türkiyə ordusunun təlimlərinə daha çox bu kontekstdən yanaşmaq lazımdır. Yoxsa, erməniləri qızışdırıb Rusiyanı Azərbaycanın üstünə salışdırmaq məqsədi ilə yox", deyə Mübariz Əhmədoğlu bildirib.

# Bayram günlərində marşrut avtobusları işləyəcək?




***Bu həftə müsəlman dünyası Qurban bayramını qeyd edəcək. Bayram münasibəti ilə Azərbaycanda 4 gün qeyri-iş günüdür. XəzərXəbər qazet.az-a istinadən xəbər verir ki, Baş nazir Əli Əsədovun "2020-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 2 dekabr 2019-cu il tarixli sərəncamına əsasən, 2020-ci il iyulun 31-i və avqustun 1-i Qurban bayramı günləri müəyyən edilib.***

1 avqust şənbə gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən, 3 avqust - bazar ertəsi ilə yeri dəyişdiriləcək, bazar ertəsi də qeyri-iş günü olacaq. Belə olan halda cümə və bazarertəsi günü də ictimai nəqliyyat işləyəcəkmi?

Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat katibi Mais Ağayev bildirib ki, sərt karantin rejimi ilə əlaqədar həftənin şənbə və bazar günü ictimai nəqliyyat fəaliyyətini dayandırır. Lakin bu həftənin cümə və növbəti həftənin bazar ertəsi bayramla əlaqədar ictimai nəqliyyatın işləyib-işləməyəcəyi ilə bağlı rəsmi qərar yoxdur. Sözügedən tarixlərdə ictimai nəqliyyatın fəaliyyətini dayandırması yalnız Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarından asılı ola bilər.

# DİN bayramla bağlı əhaliyə müraciət edib



Qurban bayramı ilə əlaqədar Daxili İşlər Nazirliyi (DİN) vətəndaşlara müraciət edib. Nazirlikdən SİA-ya verilən məlumata görə, müraciətdə deyilir: "Qarşıdan gələn Qurban bayramı münasibəti ilə vətəndaşlarımızı təbrik edir, cansağlığı, xoşbəxtlik, hər bir ailəyə bol ruzi-bərəkət arzulayırıq. Bu bayram günlərində insanların öz xeyirxah əməllərini təhlükəsiz və sağlamlığa zərər vurmayan şəraitdə yerinə yetirməsinin vacibliyi ilə əlaqədar bildiririk ki, bu il pandemiya şəraiti nəzərə alınmaqla qurbanlıq heyvanların kəsimində və satışında əvvəlki illərdən fərqli olaraq kütləviliyə, insanların sıx toplaşmasına, müəyyən edilmiş yerlərdən kənarda satışa və kəsimə icazə verilməyəcək.

Xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq qurbanlıq heyvanların onlayn satış yarmarkalarından alınması üçün yeni istifadəyə verilmiş satış portalına müraciət olunmalıdır (www.qurbanliq.kendden.az). Xüsusi karantin rejimi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tətbiq etdiyi bütün qaydalara riayət edilməsi bir daha vətəndaşlardan tələb olunur".

# Dünyada ilk: İki həftə ərzində peyvənd təsdiqlənəcək!




Rusiya Müdafiə Nazirliyinin Qamaleya adına Milli Epidemiologiya və Mikrobiologiya Tədqiqatları Mərkəzi ilə birlikdə hazırladığı COVID-19 peyvəndi iki həftə içində təsdiqlənəcək. Bu iddia ABŞ-ın CNN telekanalında səsləndirilib. Xəbərə görə, Rusiya bu təqdirdə dünyada COVID-19 peyvəndini təsdiq edən ilk ölkə olacaq. Əlavə olunub ki, ruslar peyvəndin 10 avqustdan tez hazır olması üçün sürətli şəkildə çalışır. Peyvənd etibarlı və effektiv olarsa, ilk olaraq səhiyyə işçilərinə tətbiq ediləcək. Rusiya Milli Sərvətlər Fondunun rəhbəri Kirill Dmitriyev 1957-ci ildə Sovet Sosialist Respublikaları İttifaqının dünyanın orbitinə ilk peyki yerləşdirən ölkə olmasını xatırladaraq "bu, bir Sputnik anı" sözlərini deyib: "Amerikalılar Sputnikin siqnallarını eşidəndə təəccübləndi. Peyvənddə də eynisi olacaq. Rusiya bunu bacaran ilk ölkə olacaq. Amma elm adamlarımız birinci olmaq üçün deyil, insanları qorumaq üçün çalışır".

CNN Rusiyanın layihə ilə bağlı heç bir informasiya paylaşmadığına diqqət çəkərək peyvəndin nə qədər etibarlı və effektiv olduğunun bilinmədiyini vurğulayıb. Bəzi müşahidəçilər Rusiya elm adamlarının peyvənd üzərində işlərdə ölkənin qlobal elmi qüvvə imicini yaratmaq istəyən Kremlin siyasi təzyiqi altında olduğunu iddia edir.

CNN-in xəbərinə görə, elm adamları peyvəndin sınaqlarını 3 avqusta qədər tamamlayacaq, üçüncü mərhələdə səhiyyə işçilərini peyvəndləyəcək. Rusiya mütəxəssisləri isə başqa xəstəliklər üçün hazırlanan peyvəndlərin modifikasiya edilmiş forması olduğu üçün bu peyvəndin böyük zaman tələb etmədiyini söyləyir./Publika.az

# "Bu şəxslərin Azərbaycanla bağlı heç bir xoş niyyəti yoxdur"



***"Azərbaycana qarşı düşmən mövqedə olan ermənilərlə, xaricdə sığınacaq tapan müəyyən ictimai fəalların arasındakı fərqi tapmaq sözün bütün mənalarında çətinləşib; açıq şəkildə ermənilərlə eyni nöqtəyə vururlar...Artıq cəmiyyətə məlumdur ki, son hadisələrə münasibətdə Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İsgəndərli kimi vətən dəllalları utanıb-qızarmadan Azərbaycana qarşı ermənilərlə bir cərgədə yer aldılar, açıq formada düşmənin maraqları ilə tam uyğunluq təşkil edən açıqlamalar verdilər". Bunu SİA-ya Əməkdar jurnalist Elman Babayev deyib. Onun sözlərinə görə, xaricdə məskunlaşıb ölkəmizə qarşı duranların siyahısı bunlarla bitmir-Arif, Ramiz, Leyla yunuslar, Emin Hüseynov və başqaları da uzun zamandır ki, bütün fəaliyyətlərini Azərbaycana qarşı yönəldiblər: "Bu qəbildən olan şəxslərin hədəfi həmişə, nə yazıq ki, ermənilər yox, Azərbaycan dövləti, hakimiyyəti olub. Və indi də belədir. Bu qəbildən şəxslərin adını çəkib siyahını daha da uzatmaq olar.***

Amma məsələnin düşündürücü tərəfi bu "vətənsizlərin" nədən belə bir aşağı yola baş vurub ölkəmizə qarşı düşmənlə işbirliyinə getmələridir. Bu səbəblər sırasında ağla gələn maddi təminatdır. Maddiyata görə Vətəni belə satanın isə əsl azərbaycanlı olması şübhəlidir. Belə olduğu təqdirdə, əsas səbəblərdən biri kimi düşmənlə bioloji bağlılıq məsələsi də ortaya çıxır. Söhbət ondan gedir ki, bu şəxslərin bəzilərinin bir tərəfinin erməni olması barədə tutarlı faktlar açıqlanıb və bunun əksi olan hansısa dəlil ortada yoxdur. Məsələn, mətbuatda hazırda xaricdə məskunlaşıb Azərbaycana qarşı olan paltformalarda xüsusi canfəşanlıq göstərən Arif, Ramiz, Leyla yunusların ermənilərlə bioloji bağının olması yenidən gündəmə gəlib. Arif Yunusun anasının Arşaluys Arsenovna Barseqyan adlı erməni olması və digər faktlar geniş işıqlandırılıb. (https://oxu.az/society/24112). Bunlar təkzib olunmayıb, əksinə adları çəkilən şəxslər Azərbaycanın əleyhinə olan davamlı fəaliyyətləri ilə yazılanları daha da qüvvətləndirməkdədir. Bu fəaliyyət Arif və Leyla yunuslar ailəsinin xaricə köç etməsindən sonra daha da "çiçəklənib".

Bundan başqa, bir müddət öncə mətbuatda Emin və Mehman Hüseynov qardaşlarının analarının erməni olması barədə yazılar dərc olunub. Fəqət bununla bağlı da qarşı tərəfin əsaslı bir təkzibi olmayıb (https://1news.az/az/news-/redaksiyaya-mektub-huseynov-qardaslarinin-anasinin-ermeni-yevgeniya-ovanesova-oldugu-ortaya-cixdi-foto-video) (https://www.aznews.az/news/investigation/256884.html).

Emin Hüseynovun fəaliyyəti Azərbaycan cəmiyyətinə yaxşı tanışdır və bu fəaliyyətdə Azərbaycanın lehinə olan heç nə yoxdur. Onun haqqında indiyə qədər mətbuatda kifayət qədər faktlar işıqlandırılıb. Belə ki, vaxtilə Gürcüstanın İctimai İşlər İnstitutuna (GIPA) oxumağa göndərilərək əsl agent olmaq üçün beyni yuyulan E.Hüseynovun adına sonrakı mərhələdə RATİ adlı təşkilat yaradılaraq qrant dəllalına çevrilməsindən tutmuş, qadın libasında İsveçrə səfirliyində gizlənməsinə, Azərbaycanı tərk edəndən sonra qrant əldə etmək üçün hər cür oyundan çıxmasına qədər faktlar səsləndirilib. Onların üzərində ayrı-ayrılıqda dayanmaq təkrarçılıq olardı. Bircə sözlə ifadə etsək, Hüseynov harda Azərbaycanın əleyhinə işləyən qüvvələr varsa, onların yanında peyda olan, ölkəmizə qarşı işləmək üçün bütün variantlarda istifadəyə yararlı bir şəxsdir. Bunun üçün Hüseynovun Azərbaycan əleyhinə olan tədbirlərdə etdiyi bütün çıxışlara diqqət yetirmək kifayət edir. O, "azərbaycanlılar Dağlıq Qarabağdakı müharibə zamanı erməni jurnalistlərini qətlə yetiriblər", guya azərbaycanlılar "ermənilərlə sülh şəraitində yaşamaq istəyirlər, amma hakimiyyət bunlara imkan vermir" kimi ifadələrin müəllifidirsə əlavə şərhə yer qalmır. Əslində Azərbaycan vətəndaşlığından imtina edən bir şəxsdən müsbət nəsə gözləmək də yersizdir.

İndi Hüseynov qardaşlarının anasının erməni olması ilə bağlı faktın ortaya çıxması bu fəaliyyətin təsadüfi olmadığını düşünməyə əsas verir. Deyilə bilər ki, kimsə öz valideynini, qohumunu seçmək imkanına malik deyil. Amma erməni ilə bioloji bağı olan şəxslərin fəaliyyətləri ermənilərlə üst-üstə düşürsə, artıq bu arqument keçərsiz olur.

Bir sözlə, Azərbaycanı ləkələməkdə bəzən erməniləri belə arxada qoyan şəxslərin əsl kimliyini cəmiyyət bilməlidir. Axırıncı hadisələr də sübut etdi ki, artıq bu adamların xarici dövlətlərə, qurumlara işləmək fəaliyyəti qabarıq, təhlükəli əlamətləri ilə özünü biruzə verməkdədir. Düşmənin və onlara bağlı dairələrin pul kisəsindən tökülən böyük həcmli vəsaitlərlə ovsunlananlar bilərəkdən, ya da bilməyərəkdən hər mənada dönüb olublar xarici qurumların, xüsusən də ölkəmizə düşmən qüvvələrin adamları.

Bu şəxslərin Azərbaycanı sevməyən qüvvələrdən daxil olan maddi vəsaitlə demokratiya, insan haqları məsələsində ortaya qoyduğu "əzm və cəsarət" heç bir halda ölkənin demokratik inkişafına xidmət etmir. Bu işi görən ictimai fəallardan xarici çevrələr lazım gələndə, özlərinin diqtə etməli olduğu proseslərdə, ekstremal situasiyalarda yaxşıca bəhrələnə bilirlər. Ölkənin demokratik vəziyyətini tənqid etməklə maskalanan bu şəxslərin və onları yönləndirən ayrı-ayrı xarici dairələrin Azərbaycanla bağlı heç bir xoş niyyəti yoxdur. Pərdələnərək ölkəmiz üçün moizə etdikləri demokratiya dərslərinin arxasında Azərbaycanı daha da irəli aparmaq yox, geri çəkmək niyyəti gizlənir.

Bu dairələrin "azərbaycanlı"ların əli ilə idarə etdikləri internet tv-lərin fəaliyyəti də ancaq və ancaq Azərbaycanı nüfuzdan salmağa yönəlib. Şəbəkələşmiş fəaliyyətin arxasından daha qaranlıq məqsədlərin boylanmasını təkcə sadalananlar isbat etmir. Həmin tv-lərdə əksər hallarda çirkin yalanlar və böhtanlar üzərində qurulan kampaniyanın davamlı xarakter alması, bir sıra hallarda bütün əndazəni aşması prosesin Azərbaycan əleyhinə olan qüvvələr tərəfindən yönləndirilməsinin əyani göstəricisidir. Heç bir başqa işlə məşğul olmayan bu şəxslər bəlli dairələr tərəfindən idarə olunur və yalnız Azərbaycanı nüfuzdan salmaq missiyasını yerinə yetirirlər.

Azərbaycana qarşı yaradılan geniş təbliğat şəbəkəsi heç də təsadüfi şəkildə formalaşdırılmayıb. Bu şəbəkənin maraqlı xarici qüvvələr tərəfindən şirnikləndirmə, şübhəli maliyyələşdirmə yolu ilə Azərbaycan dövlətinə qarşı çıxmasını hamı yaxşı başa düşməlidir. İllərdir, fəqrli platformalardan Azərbaycanı ləkələmək üçün çırmananlar, indi isə sosial şəbəkələrdə, internet tv-lərdə cəmləşənlər yeni simalar deyil və onların keçmişləri, siyasi kimlikləri, hansı dairələr tərəfindən idarə olunduqları, bəzilərinin ermənilərlə qohumluqları unudulmamalıdır...".

***Ceyhun Rasimoğlu***

## Qarabağın Azərbaycanlı İcması bəyanat yaydı

***Ermənistanın müxtəlif bəhanələr altında münaqişənin mahiyyətini təhrif edən və işğalın nəticələrinin möhkəmlənməsinə hesablanmış cəhdlərini qətiyyətlə pisləyirik. SİA-nın məlumatına görə, bu barədə Azərbaycanın Dağlıq bölgəsinin azərbaycanlı icmasının yaydığı bəyanatda deyilir.***

Bəyanatda bildirilir ki, Ermənistanın əlaltısı olan qondarma rejim danışıqların formatı ilə bağlı cəfəng iddialarından əl çəkməyərək özünü yenidən "münaqişə tərəfi" kimi təqdim etməyə çalışıb: "Dəfələrlə qeyd etdiyimiz kimi, münaqişənin həlli üçün aparılan danışıqların formatı ATƏT-in müvafiq qərarları, o cümlədən 1992-ci il Helsinki Yekun Görüşü zamanı qəbul olunmuş sənədlərdə təsbit olunub. Bir daha bəyan edirik ki, bütün dünyanın qəbul etdiyi kimi, münaqişə tərəfləri təcavüzkar Ermənistan və təcavüzə məruz qalmış Azərbaycandır. Ona görə də, qondarma qurumun öz aləmində hansısa "bəyanat" verməsi, onun "mətninin" üzərində çap edildiyi kağız parçasından da dəyərsizdir.

O ki qaldı 1994-cü il atəşkəs məsələsinə, Ermənistan ondan ərazilərimizin işğalının möhkəmləndirilməsi üçün istifadə edib. Bu dövr ərzində Ermənistan münaqişənin həll olunmasının hər vəchlə qarşısını almış, işğal etdiyi ərazilərimizdə qanunsuz fəaliyyətlə məşğul olub, o cümlədən qanunsuz məskunlaşdırma aparıb. Ermənistanın dəfələrlə danışıqlar formatını dəyişdirmək cəhdi beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən rədd edilərək qətiyyətlə pislənib. Lakin, cəzasızlıqdan azğınlaşmış Ermənistan rəhbərliyi bu mövqeyindən əl çəkməyib və ilhaq siyasətinə xidmət edən addımları ilə kövrək sülh prosesinə zərbələr endirməkdə davam edib. 12 iyul 2020-ci il tarixində biz bunun bir daha şahidi olduq. Aydındır ki, münaqişənin sülh yolu ilə tənzimlənməsində Ermənistan maraqlı deyil. Lakin, Ermənistan bilməlidir ki, onun torpaqlarımızı işğal altında saxlaması uzun sürməyəcək. Biz istənilən halda öz dədə-baba yurdlarımıza geri dönərək, orada yaşayışımızı tam bərpa edəcəyik".

## "Bu, təkcə səhv deyil, cinayət və xəyanətdir"

***"İyulun 12-də Ermənistanın Azərbaycanla sərhəd bölgəsində törətdiyi təxribatdan sonra iki ölkə arasında yaşananlara hibrid müharibəsi adını vermək olar. Həm odlu silahlardan istifadə olunur, həm kiberhücumlar olur, həm də informasiya müharibəsi yaşanır.***



İnformasiya savaşı digər formalardan geri qalan üsul deyil. Bu gün bütün beynəlxalq rəyi formalaşdırmaq üçün informasiya savaşının mövqeyi kifayət qədər ciddidir. Belə məqamda bütün cəmiyyət hər şeyi bir kənara qoyub bu məsələlərə mövqe bildirməlidir. Azərbaycanda 45-ə qədər partiya bütün siyasi fəaliyyətində yalnız bir hədəfə köklənərək, bir mövqedən çıxış etməyi qarşısına məqsəd qoyub. Azərbaycan cəmiyyəti Ali Baş Komandanı, Ordumuzu, dövlətimizi dəstəkləyir və bütün bu məsələlərdə kim əlindən nə gəlirsə, öz dəstəyini verməyə çalışır". BunuSİA-ya açıqlamasında Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, Milli Məclisin deputatı Fərəc Quliyev deyib.

Onun sözlərinə görə, belə məqamlarda kömək edə bilmirsənsə, gərək mane də olmayasan: "İnformasiya savaşında qarşı tərəfin, yəni düşmənin etdikləri təbii ki, gözləniləndir. Çox təəssüflər olsun ki, azərbaycanlı kimi özünü təqdim edən bəzi şəxslər nəyinki, əllərində olan ruporlardan Azərbaycanın xeyrinə istifadə edirlər, əksinə belə həssas məqamda milli maraqlarımıza zidd addımlar atırlar. Bu cür arqumentləri ermənilərin əlinə vermək daha təhlükəlidir. Erməni tərəfi bu argumentlərdən istifadə edərək bir fikir söyləyə bilirlər. Sevinc Osmanqızı, Vidadi İsgəndərli, Arif Məmmədov kimilər ermənilər haqqlıdır, Azərbaycan tərəfi günahkardır deyirlərsə, ermənilər daha çox həmin mənbələrə əsaslanıb fikirlər söyləyirlər. Ona görə bu təkcə səhv deyil, günah deyil, bu cinayət və xəyanətdir. Bu cür şeylər bağışlanmazdır. Düzdür Azərbaycan cəmiyyəti tərəfindən onlara qarşı ciddi qınaq var. Lakin hesab edirəm ki, bu mərkəzləşmiş şəkildə kollektiv şüurun məhsuludur, bir-iki nəfərin işi deyil. Əvvəlcə Cəmil Həsənli erməniləri, Paşinyanı və ailəsini müdafiə etdi, daha sonra Əli Kərimli, Sevinc Osmanqızı və s.".

Depuatar xatırladır ki, iyulun 12 də təxribat yeni başlayanda Əli Kərimli tamamilə Azərbaycan dövlətinin üstünə gəlirdi, ermənilər panika yaratmaq üçün hansı məsələləri danışırdılarsa, eyni şeyləri də Əli Kərimli deyirdi: "Guya Azərbaycan primitiv silahlardan istifadə edir, imkanları zəifidir, qarşıya yalnız əsgərləri göndərir, sərhəddki camaat köçmək istəyir və.s. Eyni şeyləri ermənilər də deyirdi, lakin gördü ki, bütün dediklərinin əksi baş verir. Azərbaycan qarşıya yalnız əsgərləri göndərmir. General, polkovnik, mayor səviyyəsində şəhidlərimiz var bizim. Onlar arxada qala bilərdilər, lakin ön cəbhədə döyüşürlər. PUA-larla, ən müasir silahlarla düşmənə zərbə vurulur. Düşmənin ən dərin təhdid obyektləri darmadağın edildi və düşmən itki verməyə məcbur oldu".

F.Quliyev vurğuladı ki, ermənilər və eyni zamanda Milli Şura bildirdi ki, Azərbaycanda vətənpərvərlik 2016-cı ildən aşağıdır: "Lakin göründü ki, əhali 2016-cı ildən daha çox dəstək verdi, həm ordusuna, həm də dövlətinə. Bu dəstək təkcə Azərbaycanda yox, Azərbaycandan xaricdə də geniş vüsət aldı. Onlar elə bildilər ki, Azərbaycan Tovuş savaşında uduzacaq və ona görə də ermənilərlə eyni mövqedən çıxış etdilər. Gördülər ki, yox heç də vəziyyət elə deyil, ayın 15-də fərqli çıxış etməyə başladılar. Bildirdilər ki, biz də dövlətin, ordunun arxasındayıq. Tamamilə əvvəlki fikirlərinə zidd fikirlər səsləndirməyə başladılar. Amma 15-i gecə onların tapşırığı ilə bir sıra şəxslər Milli Məclisə basqın etdikdən və bu basqının arxasında onların olduqları aydın olduqdan sonra yenə başladılar açıq şəkildə ermənilərin mövqeyindən çıxış etməyə. Çünki onlara dəstək olan donor təşkilatlar birmənalı şəkildə erməni diasporasına, lobbilərinə bağlıdır. Bunlar faktdır. Paşinyan hakimiyyətə gəldikdə, iş başına SOROS-dan adamlar gətirdi. Yəni sifarişi verən erməni tərəfindən olan donor təşkilatlardır. Hesab edirəm ki, təkcə ictimai qınaqla yox, hüquq-mühafizə orqanları da bu məsələ ilə əlaqədar ciddi araşdırma aparmalı və bu şəxslər cinayət məsuliyyətinə cəlb olunmalıdırlar".

***Aysel Məmmədova***

# Yenilik arzulayanlar özləri niyə yeniliyə imza atmırlar?

*Yaxud, dövlətin siyasi islahatlarına dəstək partiyalar tərəfindən də olmalıdır*

***Artıq uzun müddətdir ki, iqtidar bir sıra sahələri əhatə edən iri miqyaslı islahatlarla yanaşı, siyasi islahatları da həyata keçirir. Xüsusilə kadr islahatları fonunda münbit yenilikərə doğru addımlar atılır, gənc nəslin nümayəndələri müxtəlif yüksək vəzifələrə təyinat alır və o cümlədən, iqtidar komandasının fəaliyyətinə yeni impulslar verilir. Söz yox ki, bu reallıq həm də növbəti yeniliklərə, müasir siyasi idarəçilik maraqlarına doğru atılan uğurlu addım olaraq qiymətləndirilir.***

Daha bir məqam isə, ölkədə fəaliyyət göstərən və fəaliyyətləri uzun illərə söykənən siyasi partiyalarla bağlıdır. Belə ki, istər hakimiyyətə loyal münasibətdə olan, istərsə də qeyri-konstruktiv fəaliyyətləri ilə seçilən iqtidaryönlü və ya müxalifəyönlü siyasi partiyalar var ki, onların sədrləri zaman-zaman yeniləşmə vacibliyindən, gəncləşmədən bəhs etsələr də, bu kimi amillər sadəcə söz olaraq qalır. Daha dəqiq desək, partiyalar siyasi arenada qaldıqca, onların sədrləri də partiyaları ilə birlikdə həmin arenada yaşa dolurlar. İstefa verərək yerlərini gənclərə təhvil vermək istəyənlər isə hələ ki, görünmürlər.

### Partiya sədrinin istefa verib siyasətdən çəkilməsi və yerini gənclərə təhvil verməsi faktı barmaqla sayılacaq qədərdir

Onu da qeyd edək ki, Azərbaycanda bir partiya sədrinin istefa verib siyasətdən çəkilməsi və yerini gənclərə təhvil verməsi faktı barmaqla sayılacaq qədərdir, yaxud demək olar ki, yoxdur. Hazırkı dövrə qədər yalnız iki müxalifət partiyalarının sədrləri - AMİP və ALP-nin rəhbərləri olmuş Etibar Məmmədov və Lalə Şövkət Hacıyeva illər əvvəl rəsmən öz postlarından istefa verərək, siyasi təşkilatlarının formal olaraq "fəxri lideri" statuslarına yiyələniblər.




O cümlədən, uzun illər Müsavat partiyasına başqanlıq etmiş İsa Qəmbər də postunu şübhəli qurultay və qalmaqallı seçkilər yolu ilə gənc nəslin nümayəndələrinə deyil, məhz Arif Hacılıya təhvil versə də, hazırda "MSDM" adlı quruma rəhbərlik edir və yuxarıda adları çəkilənlərdən fərqli olaraq, siyasətdə qalmaqda davam etməkdədir.

O da əbəs deyil ki, bu gün siyasi səhnədə sədrləri gənc olan partiyalar da mövcuddur. Məsələn, müxalifətyönlü və destruktvlikdən uzaq olan AĞ Partiyanın sədri Tural Abbaslını, eləcə də GAP sədri Ağşif Şakiroğlunu burada göstərmək olar. Ancaq təəssüf ki, belə gənc partiya sədrləri azdır və digər partiyaların sədrləri uzun illərdir ki, kreslolarında qalmaqda davam edirlər. Hətta belə bir fikir də formalaşır ki, onlar bundan sonrakı illərdə də sədrlik postlarını kimsəyə təhvil vermək fikrində olmayacaqlar.

### 30... 27... 22... 20... 16... 14... - illər ötür sədrlər qalır

Misal üçün, AMİP-dən istefa verib, VİP-i təsis edən Əli Əliyev artıq 14 ildir ki, bu siyasi təşkilata sədrlik edir. Lakin onun sədrliyindən iki dəfə artıq sədr olanlar da bu gün siyasi səhnədə qalmaqda davam edirlər... 1990-cı ildə təsis edilən və 30 ildir ki, ASDP-yə sədrlik edən Araz Əlizadə çox güman ki, növbəti illərdə də sədr vəzifəsində qalmağı düşünür.

Vətəndaş Həmrəyliyi Partiyasının sədri də partiya yarandığı gündən dəyişmir. 1992-ci ildən Sabir Rüstəmxanlı VHP-yə 28 ildir sədrlik edir. Ədalət Partiyasının sədri isə 27 ildir eyni şəxsdir. 1993-cü ildə yaradılan Ədalət Partiyasının qurucusu və sədri o vaxtdan indiyədək İlyas İsmayılovdur.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, millət vəkili Qüdrət Həsənquliyev isə, 16 ildir bu siyasi təşkilatın rəhbəridir.

Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri isə 14 ildir dəyişməzdir. KXCP 2006-cı ilin mart ayında Mirmahmud Mirəlioğlunun başçılığı ilə yaradılıb. Bu günə qədər Mirmahmud Mirəlioğlu partiyanın sədri kimi qalmaqda davam edir.

Onu da qeyd edək ki, bu iki partiya sədrləri məhz AXCP-də yaranmış qalmaqallardan, xüsusilə Əli Kərimlinin adıçəkilən partiyanı parçalamasından sonra özlərinə siyasi təşkilat yaradıblar.

Yeri gəlmişkən, AXCP-nin sədri Əli Kərimli 2000-ci ildən - 20 ildir ki, həmin partiyanın sədrlik kürsüsünü zəbt edib və hətta qurultaylarını keçirsə belə, öz postunu kimsəyə verməyib.

Ümid Partiyasına isə 18 ildir eyni şəxs sədrlik edir. 1993-cü ildə təsis edilərək, elə həmin ildə də dövlət qeydiyyatına alınan partiyanın ilk sədri mərhum Əbülfət Əhmədov olub. 2002-ci il dekabrın 15-də Ümid Partiyasının III (I) Qurultayında partiyanın sədri İqbal Ağazadə seçilib və bu gün də sədrdir.

Ən uzunömürlü partiya sədrlərindən biri də Azərbaycan Xalq Partiyası (AXP) sədri Pənah Hüseyndir. Bu siyasi təşkilat 1995-ci ildə təsis edilib və nə az, nə çox düz 25 ildir ona rəhbərliyi P.Hüseyn etməkdədir.

Azərbaycan Liberal Demokratik Partiyasının (ALDP) sədri isə Fuad Əliyevdir o 2001-ci ildən - 19 ildir ki, bu təşkilata rəhbərlik edir və görünür o da yerini kimsəyə vermək fikrində deyil.

Ana Vətən Partiyasının (AVP) sədri Fəzail Ağamalı da ən uzunömürlü sədrlərdəndir. O, bu partiya yarananda həmin təşkilatın sədridir - 30 il.

Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu da 1991-ci ildən bu partiyanı təsis edib və hələ də rəhbəri qalmaqda davam edir. 29 ildir bu partiyaya sədrlik edən S.Cəlaloğlunun yenilik çağırışlarında bulunmasına baxmayaraq, o öz postunu təhvil-təslim etməyib. Beləliklə, bu siyahını daha çox uzatmaq olar və sadəcə, buradakı fikrin aydın olması üçün qeyd etmək yerinə düşərdi ki, ölkədə yeniliklərin, tərəqqinin, siyasi və s. islahatların dəstəkçiləri olmaq üçün artıq bu partiyaların sədrləri də az-çox düşünməli, öz yerlərini xələflərinə verməlidirlər. Çünki ölkədə gəncləşmə siyasəti aparılırsa, bu zaman həmin siyasətə dəstəyin göstərilməsi də müsbət addım olaraq qiymətləndirilə bilər. Hər halda, uzunömürlü siyasi partiya sədrlərinin yeniləşməmələri, yaxud bunu etmək istəməmələri, daha dəqiqi isə real siyasi çalarlar da bu gerçəkliyi diktə etməyə başlayıb.

**Rövşən NURƏDDİNOĞLU**

## Təhmasib Novruzov: "Əli Kərimliyə qarşı hüquqi tədbirlər görülməlidir"



Artıq faktlarla sübuta yetirilməkdədir ki, xaricdəki "söyüş müxalifəti"nin Azərbaycandakı kuratoru AXCP sədri Əli Kərimlidir. Sual yaranır, mövcud faktlar ortada olduğu halda, AXPC-yə və onun sədri Əli Kərimliyə qarşı hüquqi tədbirlərin görülməsinə nə mane olur? "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Əli Kərimlinin anti-Azərbaycan fəaliyyəti coxdan hər kəsə bəllidir: "Əvvəllər düşünmək olardı ki, gəncdi, hələ müxalifətçiliyin kimə qarşı yönləndirilməsini yaxşı bilmir. Ona görə hakimiyyətlə dövləti qarışıq salır. Ancaq artıq 25 ildən çox müxalifətçilik edən bir adam haqqında belə düşünmək mümkün deyil. Deməli, o bilərəkdən, qəsdən Azərbaycanın milli və dövlətçilik maraqlarına zərər vuran hərəkətlərə yol verir ki, bu da quvvədə olan qanunvericiliklə cinayət məsuliyyəti yaradır. Üstəgəl, bu adam özü ilə yanaşı, çoxsaylı insanları, Azərbaycan vətəndaşlarını da bu çirkin əməllərə cəlb edib ki, bu da, xüsusilə, ağırlaşdırıcı məsuliyyət yaradır. Məncə, Əli Kərimliyə qarşı hüquqi tədbirlərə start verilməsinin vaxtı çoxdan çatıb. Milli və dövlətçilik məsələlərində humanistlik sonda ölkəni ağır problemlərlə üz- üzə qoya bilər. Odur ki, zənnimcə, hüquq-mühafizə orqanları gecikmədən onun məsuliyyətə cəlb olunması ilə bağlı işləmlərə başlamalıdırlar".

T.Novruzov onu da bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq ümid edirlər ki, nə vaxtısa onlar da nəyə isə nail ola biləcəklər: "Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni, müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə onların faciəsidir".

***Gülyana***

## Vətəndaşdan pul tələb edən vəzifəli şəxslər tutuldu




Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi inkişafın mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, aparılan iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən daim diqqət mərkəzində saxlanılmaqla korrupsiya hüquqpozmalarına qarşı kəsərli və ardıcıl mübarizə tədbirləri davam etdirilir.

Həyata keçirilməkdə olan belə tədbirlərin davamı kimi, Zərdab rayonu, Yarməmmədbağı bələdiyyəsinin sədri vəzifəsində işləyən Xəlilov Sahib Osman oğlu və Zərdab rayon İcra Hakimiyyəti başçısının Yarməmmədbağ kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsində işləmiş Xəlilov Rahib Yediyar oğlunun bələdiyyəyə məxsus 74 hektar torpaq sahəsini tərtib etdikləri 2007-ci il tarixli saxta icarə müqaviləsi əsasında 25 il müddətinə (2007-ci il tarixdən 2032-ci il tarixədək) icarəyə verilməsi müqabilində vətəndaşdan 10 min manat pul vəsaitini rüşvət qismində istəmələri barədə müraciət əsasında Azərbaycan Respublikası Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmışdır.

Daxil olmuş məlumat əsasında Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilmiş operativ əməliyyat-axtarış tədbirləri ilə Sahib Xəlilov və Rahib Xəlilovun qeyd edilən 10 min manat məbləğinin 500 manatını 18.07.2020-ci il tarixdə tanışlarının adına olan "Kapital bank" ASC-yə məxsus plastik karta yüklənməsinə nail olmaqla, habelə, qalan məbləğin 1.500 manatını isə 22.07.2020-ci il tarixdə Zərdab rayonu, Aşağı Seyidlər kəndində almaları təsbit edilmiş, həmin şəxslər 28 iyul 2020-ci il tarixdə vətəndaşdan tələb etdikləri məbləğin 5 min manatını Zərdab rayonu ərazisində yerləşən kafelərdən birində alarkən cinayət başında yaxalanmışlar.

Göstərilən faktlar əsasında 28 iyul 2020-ci il tarixdə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində İstintaq idarəsində Cinayət Məcəlləsinin 311.3.3-cü (vəzifəli şəxs tərəfindən xidməti vəzifəsinin icrası ilə əlaqədar edəcəyi qanunsuz hərəkətə görə külli miqdarda maddi neməti rüşvət qismində istəməklə alma) və 313-cü (vəzifəli şəxs tərəfindən tamah niyyəti ilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatları daxil etməklə vəzifə saxtakarlığı törətmə) maddələri ilə cinayət işi başlanmışdır.

Cinayət işi üzrə Xəlilov Sahib Osman oğlu və Xəlilov Rahib Yediyar oğlunun Cinayət Məcəlləsinin həmin maddələri ilə nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən sonuncular 28 iyul 2020-ci il tarixdə şübhəli şəxs qismində tutulmuşlar. Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Ailə dəyərləri sahəsində maarifçilik işləri

*__Ailə - cəmiyyətin və dövlətin ən mühüm sosial dəyəridir. Bu, insanın təşəkkülü və inkişafı proseslərinin, əsas etibarilə digər insanların həyatının asılı olduğu cəmiyyətin gələcək liderləri və vətəndaşlarının formalaşmasının baş verdiyi kiçik və böyük insan dünyasıdır. Nəsildən nəslə ötürülən yazılmamış qanunlar, təsislər və təyinatların yaşamaq qabiliyyətini və şəxsiyyətin psixologiyası və. davranışının formalaşmasına təsir gücünü təmin edərək, ailə onların "translyasiyasını" həyata keçirir. Anadangəlmə keyfiyyətlərin və əldə edilmiş biliklərin, tərbiyə və yaradıcı əməyin nəticəsi kimi, şəxsiyyətin ruhi mədəniyyətinin bünövrəsi məhz ailədə qoyulur.__*

Dövlətin həyat qabiliyyəti bir çox cəhətdən ailə mədəniyyətindən - onun üzvlərinin təhsillilik və etik mədəniyyəti, yaradıcılıq fəaliyyəti və rifah səviyyəsindən asılıdır. Vətəndaşların biliyini və mənəviyyatını, şüurunu və vicdanını, məhəbbəti, inamı və yaxşılığını, yaradıcılığını və rifahını ifadə edən bu ən qiymətli sosial kapital, sosial şərin və sosial sabitsizliyin aradan qaldırılmasının əvəzedilməz vasitəsidir. Ailə mədəniyyəti həm valideynlərin şəxsi mədəniyyətindən, onların bilikləri, bacarıqları, mütəşəkkilliyindən, onların həyat fəlsəfəsi, mənəviyyatı və yaradıcı fəaliyyətindən, həm də bütövlükdə milli mədəniyyətdən, xalqın ənənələri, adətləri, milli psixologiyasından, dinindən asılıdır.

Cəmilə Çiçək göstərir ki,vaxtilə xaricdən gətirilən, dövrümüzdə isə əsasən də internet, yeni media, sosial şəbəkələr və KİV vasitəsilə həyatımıza yeridilən basqıların qarşısını almaq xeyli çətindir. Bu istiqamətdə araşdırmalarımızı cəmiyyətə təqdim etməklə milli ailə dəyər sistemimizin, ağsaqqallıq-ağbirçəklik institutunun, fəlsəfəsinin zəifləməsinin qarşısını almaq, ailələrdəki münaqişələrin, boşanmaların, nəsillərarası mənəvi-psixoloji toqquşmaların qarşısını, qismən də olsa, almaq üçün ictimai-virtual aksiyaların həyata keçirilməsi dəstəklənməlidir. Eyni zamanda, bu istiqamətdə güclü maarifçilik işləri aparılmalı, sadalanan problemin həllinə yönəli bir çox məsələlər vaxtında ictimailəşdirilməlidir.

Cəmilə Çiçək bu məqsədləri həyata keçirmək üçün aşağıdakı məsələlərə xüsusi diqqət ayırmağı təklif edir:

- Milli ailə dəyərləri dəqiqləşdirilməli, universal, bəşəri, yaxud etnik-milli hadisə olaraq tədqiqata cəlb edilməlidir;
- Tarixən, elə indinin özündə cəmiyyətimizin müxtəlif sferalarında nüfuzu olan ağsaqqal-ağbirçək insanları aşkarlamaq və onların həyat bilgilərini, yaşam fəaliyyətini öyrənməklə ailə dəyərlər sisteminin ümumi formatı gözdən keçirilməlidir;
- Yaşlı adamların yaddaşından keçmişdə tanınan ağsaqqal-ağbirçək şəxslər haqqında məlumat toplamaqla ailə dəyərlərinə sadiqliyin mahiyyəti yeni nəslin nümayəndələrinə ötürülməlidir;
- Ailə institutunun şifahi və əski yazılı qaynaqlar əsasında ənənəvi mədəniyyətdəki yeri və rolu aydınlaşdırılmalıdır;
- Çağdaş Azərbaycanın tarixən oturuşmuş milli, eləcə də formalaşmaqda olan modern ailə institutunun mövcud vəziyyəti təhlil olunmaqla əsas böyük problemlər müəyyənləşdirilməlidir;
- Ailə dəyərlər sisteminin əsas elementlərindən olan ağsaqqallıq-ağbirçəklik institutunun, dünyagörüşünün, fəlsəfəsinin, problemlərinin öyrənilməsi, onların bərpası, beynəlxalq aləmdə planetar etik norma kimi təbliği, aktivləşdirilməsi və populyarlaşdırılması yolları öyrənilməlidir;
- İnternet və sosial şəbəkələrdə, klassik, həm də yeni mediada, mətbuatda, KİV-də, TV-lərdə milli Azərbaycan ailə dəyərlərinin, eləcə də ağsaqqallıq-ağbirçəklik institutunun tanıdılması, təbliği və yayımı təşkil edilməlidir;
- Ailə dəyərlərinin ən yaxşı cəhətləri, ağsaqqallıqağbirçəklik institutu haqqında əldə edilmiş elmi-kütləvi qənaətlərin yeni media və klassik KİV-də ardıcıl olaraq tanıtımı, yayımı həyata keçirilməlidir;
- Ağsaqqalların, ağbirçəklərin və gənclərin bir yerdə olduğu dəyirmi masa və tanıtım məclislərini təşkil etməklə problemin ictimai-sosial müzakirəsi həyata keçirilməli və perspektivləri müəyyənləşdirilməlidir...

Əsas hədəf isə bu istiqamətdə həyata keçirilən layihələrdə, dövlət proqramlarında yeni nəsil nümayəndələ rinin fəal iştirakını təmin etməkdir. İnternet və qlobal elektron resurslarda, TV-lərdə, sosial şəbəkələrdə milli ailə dəyərlərimizin təbliğində gənclərin rolunun artmasına nail olmaq, o yöndə yeni metodların, formaların axtarılaraq tapılmasına, sözügedən mövzuda həyata keçirilən rəsmi dövlət proqramlarının, tədbirlərin geniş ictimaiyyət tərəfindən tanıdılmasına və dəstəklənməsinə böyük ehtiyac var.

Ailə mərkəzlərinin mütəxəssislərini, ailəşünasları, ağsaqqalları, ağbirçəkləri, münaqişəşünasları, cəmiyyətşünasları, kulturoloqları, ailə psixoloqlarını, sosioloqları, yeniyetmələri, gəncləri, tələbələri, jurnalistləri, yazıçıları, publisistləri, tərcüməçiləri, yazılı və elektron KİV nümayəndələrini, bloqerləri, eləcə də xaricdə yaşayan soydaşlarımızı, həmçinin internet - sosial media, qlobal şəbəkə istifadəçilərini bu problem ətrafında geniş ictimai-mədəni müzakirələrə cəlb etmək mümkündür. Çünki problem Azərbaycan cəmiyyətinin bütün sahələrini əhatə edəcək.

Ailənin möhkəmliyi və rifahı onun etik mədəniyyətindən, onun üzvlərinin davranış kodeksinin əsaslandığı mənəvi prinsiplər və ənənələrdən asılıdır. Yüksək mənəvi prinsiplər əsasında yaşayan Azərbaycan ailəsi mədəniyyətinin tipik göstəriciləri - böyüyə hörmət, uşaqlara məhəbbət, həmrəylik, qarşılıqlı yardım, sədaqət, səbr, məhəbbət, dostluq, qonaqpərvərlikdir.

Ailə əxlaq kodeksi aşağıdakıları onun hər bir üzvünün öhdəsinə qoyur:

1. Ailənin ruhi rahatlığı, maddi rifahı və mənəvi prestijinin saxlanılması üçün zəruri qüvvələri sərf etmək.
2. Ailənin və şəxsiyyətin yüksək ruhi mədəniyyət prinsiplərinə sədaqətini tanış olmayan və yad insanların loyallığından üstün tutmaq.
3. Dürüstlük, ədalət və xeyirxahlıq, böyüklərə hörmət və kiçiklərə məhəbbət, yaşlılar, uşaqlar və əlillər haqqında qayğını nəzərdə tutan yüksək mənəvi həyat prinsiplərinə tərəfdar olmaq.
4. Ailə maraqlarının prioritetliyini yadda saxlayaraq, öz maraqlarını ailə maraqları ilə harmonik surətdə uyğunlaşdırmaq.
5. Ailə üzvləri və dostları tərəfindən göstərilən etimadı yüksək qiymətləndirmək və doğrultmaq.
6. Daim məhəbbət, dostluq və sədaqət, inam və dözüm, hörmət, məsuliyyət və dürüstlük, ailə üzvlərinin sağlamlığına qayğı nümayiş etdirmək.
7. Kamilliyə can atmaq, özündə pozitiv xarakter, kompromisə getmək bacarığı, vicdan, doğruluq, dürüstlük formalaşdırmaq.
8. Ətrafdakılara pislik etməmək, ailədə sağlam və xoş psixoloji mühitin yaradılmasına yardım predmeti vasitəsilə öz hərəkətlərinə şüuru ilə nəzarəti müntəzəm olaraq həyata keçirmək.
9. Qonşular, iş yoldaşları, tanışlar və dostlarla xeyirxah münasibətlər saxlamaq.
10. Qanunun aliliyini qorumaq, cəmiyyət üzvlərinə və legitim hakimiyyətə hörmətlə yanaşmaq, dövlət simvollarına hörmət etmək.

İdealda hər bir ailənin əxlaq kodeksi yalnız ailənin deyil, həm də milli və ümumbəşəri mədəni dəyərləri əks etdirməli, özündə bəşəriyyətin vətənpərvərlik və humanizm ideallarını harmonizasiya etməlidir.

Tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynamışdır. Önəmlidir ki, bir sıra toplumlardan fərqli olaraq, Azərbaycan cəmiyyətində ailə institutu özünün sosial təyinatını və milli-mənəvi missiyasını daha tam və dolğun şəkildə qoruyub saxlamaqdadır.

Təsadüfi deyil ki, hər il may ayının 15-i dünyada təntənə ilə qeyd olunan və insanların diqqətini ailə problemlərinin həllinə bir daha yönəltmək məqsədi daşıyan Beynəlxalq Ailə Günü münasibətilə respublikamızda da silsilə tədbirlər həyata keçirilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bu əlamətdar günlə bağlı təşkil etdiyi "Ailə bayramı"nda nümunəvi ailələrin seçilməsi, respublikanın müxtəlif bölgələrində mərasimlərin keçirilməsi artıq xoş ənənəyə çevrilib. Bu il ailə bayramının ünvanı vətənimizin dilbər guşəsi Lənkərandır.

Müstəqil Azərbaycan Respublikasında sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birini məhz ailə siyasəti təşkil edir. Bu gerçəkliyi daim nəzərə alan Heydər Əliyev ölkəmizdə ailə siyasətinin formalaşdırılması məsələlərinə böyük diqqət yetirmiş, həmin sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illərdə ümummilli lider ailə siyasəti ilə bağlı məsələlərin normativ-hüquqi tənzimini və əməli həllini prioritet vəzifələrdən biri kimi qarşıya qoymuşdur.

Müstəqil Azərbaycanda həyata keçirilən dövlət ailə siyasəti milli-mənəvi dəyərlərdən qaynaqlanır və bilavasitə onun təcəssümüdür. Bu da ölkədə ailəyə verilən qiymətin bariz ifadəsidir. Bu il aprelin 22-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında ölkə başçısı bu məqamları xüsusilə vurğulamışdır: "Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim üçün əsas dəyərlər Azərbaycanın milli dəyərləridir. Bu baxımdan, əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır".

***Vahid Ömərov f.ü.f.d.dos.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

30 iyul

## 21-ci əsrin penalti ustaları




**2 1-ci əsrdə penaltidən ən çox qol vuran futbolçuların siyahısı açıqlanıb. Qol.az xəbər verir ki, "GiveMeSport" nəşrinin hazırladığı siyahıya "Yuventus"un hücumçusu Kriştiano Ronaldo başçılıq edir.**

Portuqaliyalı futbolçu 2000-ci ildən indiyədək 114 penaltini dəqiq yerinə yetirib. "Barselona" və Argentina millisinin kapitanı Lionel Messi ilə "Roma"nın canlı əfsanəsi Françesko Totti hərəyə 75 penalti ilə 2-ci yerdə qərarlaşıblar. 64 dəfə penaltidən rəqib qapılarına yol tapan "Milan"ın forvardı Zlatan İbrahimoviç isə 3-cüdür. İlk 10-luqda Frenk Lempard (50), Edinson Kavani (48), Stiven Cerrard (46), Alessandro Del Pyero, Ronaldinyo (hər ikisi 44) və Serxio Aquero (41) da yer alıb.

## Messinin atası Milanda ev alıb




***"İnter"in sabiq sahibi Massimo Moratti Lionel Messinin bu kluba keçəcəyinə ümid edir. Qol.az-ın xəbərinə görə, o, "La Gazzetta dello Sport"a müsahibəsində bildirib ki, bəzən futbolda xəyallar gerçəkləşir: "Messinin atasının Milanda, "İnter"in baş ofisi yaxınlığında ev alması faktını unutmamalıyıq. Bəlkə o, müqavilə bağlamaq üçün bura gələcək".***

Qeyd edək ki, 33 yaşlı argentinalının "Barselona" ilə müqaviləsi 2021-ci ilin yayında başa çatır. Bir neçə gün öncə onun "İnter"ə keçəcəyi barədə xəbərlər yayılsa da, komandanın baş məşqçisi Antonio Konte məlumatı təkzib edib.

## Həbib rməhəmmədovlun növbəti rəqibinin adı açıqlandı



Yüngül çəkidə Mütləq Döyüş Çempionatının (UFC) qalibi Həbib Nurməhəmmədovla müvəqqəti çempion Castin Geyci arasındakı görüş oktyabrın 24-də keçiriləcək. Matc.az xəbər verir ki, bu barədə UFC prezidenti Deyna Uayt açıqlama verib. O bildirib ki, qarşılaşma, böyük ehtimalla, Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu Dabidə UFC 254 turniri zamanı gerçəkləşəcək.

Öncədən döyüşün sentyabrın 19-da UFC 253 turniri zamanı təşkili nəzərdə tutulmuşdu. Lakin görüş Həbib Nurməhəmmədovun atası Abdulmanap Nurməhəmmədovun ölümü ilə əlaqədar təxirə salınıb.

## 90 yaşlı iş adamı 30 yaşlı sevgilisiylə Bodrumda istirahət edir

90 yaşlı məşhur iş adamı Kemal Gülman özündən 30 yaş kiçik sevgilisi ilə Bodrumda istirahət edir. Türkiyə mətbuatı xəbər verir ki, 90 yaşlı iş adamı 30 yaşlı gənc sevgilisi ilə eşq yaşayarkən kameralara yaxalanıb. Babası yaşlı kişiylə münasibət yaşayan Eda Cilelinin vəkil olduğu qeyd edilib. 90 yaşlı iş adamı keçmiş həyat yoldaşı Feryal Gülmanla da özündən 60 yaş kiçik qadınla gizli eşq yaşadığı üçün ayrılmışdı. Gülman yenə də nəvəsi yaşlı qızla Bodrumdakı lüks yaxtasında görüntülənib.



## Goranboyda avtomobil ağaca çırpılıb, ölən var

Goranboy rayonunun Goran qəsəbəsi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyulun 28-də saat 16 radələrində Goranboy rayonunun Goran qəsəbəsi ərazisində Səfikürd kənd sakini Tapdıq Behbudov idarə etdiyi "Mercedes" markalı avtomobili yolun kənarındakı ağaca vurmuş və nəticədə hadisə yerində ölüb. Goranboy RPŞ tərəfindən araşdırma aparılır.

## Məşhur rəssam Rembrandtın avtoportreti rekord məbləğə satılıb



Rembrandtın 1632-ci ildə yaratdığı Harmen van Reyn rəsmi Londonda rekord 14.5 milyon funta (18.7 milyon dollar) satılıb. SİA-nın "Sotheby's" xərrac evinə istinadən verdiyi məlumata görə, ilkin olaraq rəsmə 12-16 milyon funt (15-20 milyon dollar) qiymət qoyulmuşdu. Rəssam sənət əsərini 26 yaşında olarkən çəkib. Bu Rembrandtın özünü rəsmi geyimdə - ağ yaxalıq və qara şlyapada təsvir etdiyi iki rəsmdən biridir. Sənətkarın əvvəlki rekord qıran digər avtoportreti 6.9 milyon funt sterlinqə satılıb.

## Evdən pul oğurlayan şəxs tutuldu

Evlərin birindən pul oğurlamaqda şübhəli bilinən Masallı rayonunun Musaküçə kənd sakini T.Hüseynova saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Masallı RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki evlərin birindən 600 manat pul oğurlamaqda şübhəli bilinən Musaküçə kənd sakini T.Hüseynova saxlanılıb.



## Maşın qaçıran şəxs tutuldu

Avtomobil qaçırmaqda şübhəli bilinən V.Axundov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Xətai RPİ 36-cı PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Bakı şəhər sakini Y.İbrahimova məxsus "QAZ-2410" markalı avtomobili qaçırmaqda şübhəli bilinən V.Axundov saxlanılıb.



**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**